YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

08 may 2026-cı il, cümə
№ 080 (7147)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Cənubi Qafqazın yeni inkişaf erası...

## Ümumi hədəflər: sabitlik, regional inteqrasiya və geosiyasi perspektiv




Bax səh. 2

## WUF13- ə beynəlxalq maraq artır...

### Forumun təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilib

Bax səh. 2

## Beynəlxalq hüquq və siyasi qətiyyətin qarşısında...

Bax səh. 2



Bax səh. 3

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər



Bax səh. 3-4

## Heydər Əliyevin dövlətçilik fəlsəfəsi: tarixi dəyərlər əsasında gələcəyə baxış

## Avrozonada iqtisadi geriləmə...



Bax səh. 7

## Müstəqil Ermənistan yaranacaqmı?



Bax səh. 7

# Cənubi Qafqazın yeni inkişaf erası...

## Ümumi hədəflər: sabitlik, regional inteqrasiya və geosiyasi perspektiv

Sirr deyil ki, inkişafın ən ümdə şərti sabitlik, sülh və normal münasibətlər sistemidir. Xüsusilə regional münaqişələr tarix boyu ayrı-ayrı coğrafiyaların inkişaf trayektoriyasına birbaşa təsir göstərən əsas amillərdən biri olub - təhlükəsizliyin təmin olunmadığı, siyasi sabitliyin zəif olduğu və davamlı risklərin hökm sürdüyü mühitdə nə iqtisadi yüksəliş, nə də sosial rifahdan danışmaq mümkün deyil. Belə bir halda münaqişə zonalarında investisiya cəlbediciliyi aşağı düşür, infrastruktur layihələri ya dayanır, ya da gecikir, məcburi miqrasiyanın səviyyəsi yüksəlir, qaçqınlıq və məcburi köçkünlük ümumən regionun ab-havasına mənfi təsir göstərir. Bu baxımdan, regional təhlükəsizlik yalnız hərbi və siyasi məsələ kimi deyil, eyni zamanda iqtisadi inkişafın fundamental şərti kimi qəbul olunur.

Cənubi Qafqaz regionu da uzun illər məhz bu cür mürəkkəb mənfi reallıqların təsiri altında yaşamağa məcbur olub. Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, torpaqların işğalı və separatizmə verilən dəstək nəticəsində bölgə uzun müddət müharibə şəraitində yaşamayıb. Ən əsası isə bu mühit bütövlükdə Cənubi Qafqazın inkişafına mane olub. Halbuki, coğrafi baxımdan Avrasiyanın mühüm kəsişmə nöqtəsində yerləşən Cənubi Qafqaz böyük geostrateji potensiala malikdir. Bu region həm enerji marşrutlarının keçdiyi ərazi, həm nəqliyyat-logistika baxımından körpü rolunu oynayan məkandır - paralel olaraq həm də turizm və investisiya üçün geniş imkanlara sahibdir. Lakin Erəmənistanın təcavüzkar siyasəti bu potensialın uzun illər reallaşdırılmasına mane oldu, Təxminən 30 il ərzində Cənubi Qafqaz regionu imkanlarından geri qaldı. Bu gerilik yalnız iqtisadi göstəricilərdə deyil, həm də siyasi əməkdaşlıq, regional inteqrasiya və beynəlxalq layihələrdə iştirak səviyyəsində özünü göstərdi. Lakin son illərdə baş verən hadisələr bu mənzərəni köklü şəkildə dəyişdirdi - region yeni inkişaf mərhələsinə qədəm qoydu.

## Yeni təhlükəsizlik arxitekturası və dəyişən reallıqlar

44 günlük Vətən müharibəsi Cənubi Qafqaz regionunda formalaşmış uzunmüddətli status-kvonu kökündən dəyişdirərək yeni təhlükəsizlik arxitekturasının əsasını qoydu. Bu dəyişiklik yalnız hərbi nəticələrlə məhdudlaşmadı, eyni zamanda siyasi və iqtisadi müstəvidə də ciddi transformasiyalara yol açdı. Azərbaycanın qətiyyətli mövqeyi nəticəsində regionda ədalət prinsiplərinə əsaslanan yeni reallıqlar formalaşdı və bu, gələcək inkişaf üçün fundamental zəmin yaratdı.

İlk növbədə, regionda təhlükəsizliyin təmin olunması inkişaf imkanlarını genişləndirdi. Uzun illər davam edən qeyri-müəyyənlik və risklər aradan qalxdıqca, həm yerli, həm də xarici investorlar üçün daha əlverişli mühit formalaşmağa başladı. Təhlükəsizlik faktorunun güclənməsi iqtisadi aktivliyi artırdı, yeni layihələrin həyata keçirilməsinə şərait yaratdı və regionun beynəlxalq iqtisadi sistemə inteqrasiyasını sürətləndirdi.

Eyni zamanda, qlobal diqqətin Cənubi Qafqaza yönəlməsi də mühüm amillərdən biridir. Müharibədən sonra yaranmış yeni geosiyasi vəziyyət beynəlxalq aktorların regiona marağını artırdı. Bu maraq yalnız siyasi deyil, həm də iqtisadi xarakter daşıyır. Enerji təhlükəsizliyi, alternativ nəqliyyat marşrutları və yeni bazar imkanları baxımından Cənubi Qafqaz artıq daha önəmli mövqeyə sahibdir.

Bu kontekstdə Zəngəzur dəhlizi layihəsi (TRİPP) xüsusi əhəmiyyət kəsb edir. Bu təşəbbüs regionun nəqliyyat-logistika xəritəsini yenidən formalaşdırmaqla yanaşı, ticarət əlaqələrinin genişlənməsinə də təkan verir. Dəhliz vasitəsilə Şərq və Qərb arasında daha qısa və effektiv marşrutun yaranması həm regional, həm də qlobal iqtisadi proseslərə müsbət təsir göstərir. Bu layihə yalnız iqtisadi deyil, həm də siyasi baxımdan əməkdaşlıq mühitinin güclənməsinə xidmət edir.

Nəticə etibarilə, Vətən müharibəsi illərlə uzanan münaqişənin ədalətli həllinə yol açmaqla yanaşı,




regionda yeni inkişaf mərhələsinin başlanğıc nöqtəsinə çevrildi. Cənubi Qafqaz uzun illər davam edən durğunluqdan çıxararaq dinamik inkişaf yoluna yönəltdi.

## Sülh və sabitlik: inkişafın əsas şərti...

Hər hansı bir regionun davamlı inkişafı üçün əsas şərt sabitlik və sülh mühitinin mövcudluğudur. Bu prinsip Cənubi Qafqaz üçün də istisna deyil. Uzun illər davam edən münaqişə şəraiti regionda iqtisadi əlaqələrin zəifləməsinə, qarşılıqlı etimadın itirilməsinə və əməkdaşlıq imkanlarının məhdudlaşmasına səbəb olmuşdu. Buna görə də, yeni mərhələdə ən vacib məsələ məhz sülhün bərqərar olmasıdır. Qonşu ölkələrin də bu reallığı qəbul etməsi mühüm əhəmiyyət kəsb edir. Çünki regional inkişaf yalnız bir ölkənin səyləri ilə mümkün deyil - bu, qarşılıqlı əməkdaşlıq və ortaq maraqlar əsasında formalaşır. Sülhün qorunması və möhkəmləndirilməsi bütün ölkələrin maraqlarına xidmət edir və uzunmüddətli inkişafın təmin olunması üçün zəruri şərtdir. Yeri gəlmişkən, Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili İstanbulda Parlamentlərarası İttifaqın (PAİ) Baş Assambleyasının sessiyasındakı çıxışında bildirib ki, Cənubi Qafqaz bir vaxtlar qeyri-sabit hesab edilən bölgə idi. İndi bu bölgə daha sabit və proqnozlaşdırıla bilən hala gəlir. Bu, təsadüf deyil, effektiv suverenliyin nəticəsidir. Onun sözlərinə görə, Gürcüstan, Ermənistan və Azərbaycan getdikcə öz milli maraqlarına uyğun hərəkət edirlər. Suverenliyə hörmət edildikdə sabitlik də güclənir. "Sülh heç vaxt təmin edilmir. Sülh bir məsuliyyətdir. Bu, ayıqlıq, təmkin və uzunmüddətli vizyon tələb edir. Gələcəyə doğru güclü institutlar, şəffaf sistemlər direktiv qanunlar texniki detallar deyil, sülhün təməlidir. Buna görə də birlikdə hərəkət etməliyik. Xarici müdaxiləni və hibrid müharibəni olduğu kimi - dövrümüzdə demokratiya və suverenliyə ən böyük təhdidlərdən biri kimi qəbul etməliyik və bəyannamələrdən kənara çıxmalıyıq", - deyə Papuaşvili vurğulayıb.

Sabitlik regionun rifahının əsas dayağıdır. Cənubi Qafqazda da bu tendensiya artıq müşahidə olunmaqdadır. Region ölkələri arasında əməkdaşlıq imkanlarının genişlənməsi iqtisadi əlaqələrin inkişafına müsbət təsir göstərir. Bu amil regionun beynəlxalq sistemdə daha fəal rol oynamasına və potensialını tam reallaşdırmasına imkan yaradır.

## Yeni regional vizyon

Müasir mərhələdə Azərbaycanın Cənubi Qafqazın yenidən formalaşdırılmasında aparıcı rol oynaması bütün dünya tərəfindən qəbul olunur. Regionda yaranmış yeni reallıqlar fonunda Bakı yalnız öz milli maraqlarını deyil, eyni zamanda ümumi regional inkişafı da nəzərə alan siyasət yürüdür. Bu yanaşma həm siyasi, həm də iqtisadi sahədə özünü açıq şəkildə göstərir. Ötən ilin avqustunda Vaşinqtonda əldə edilən razılaşmalar və sülh müqaviləsinin paraflanması region üçün yeni perspektivlər açıb. Bu proseslər tərəflər arasında etimadın bərpasına və münasibətlərin normallaşmasına xidmət edir. Diplomatik səylərin intensivləşməsi isə uzunmüddətli sabitliyin təmin olunmasına yönəlib. Azərbaycanın təşəbbüsləri regionda qarşılıqlı iqtisadi inteqrasiyanı da gücləndirir. Nəqliyyat və logistika layihələrinin həyata keçirilməsi, enerji əməkdaşlığının genişləndirilməsi və qarşılıqlı ticarət əlaqələrinin inkişafı bu siyasətin əsas istiqamətləridir. Azərbaycanın həyata keçirdiyi siyasət regionda yeni inkişaf modelinin formalaşmasına səbəb olur. Bu model qarşılıqlı fayda, əməkdaşlıq və davamlı inkişaf prinsiplərinə əsaslanır.

## Regional sabitlik və təhlükəsizlik siyasəti...

Azərbaycan üçün hər zaman bir nömrəli məsələ regional sabitlik olub. İşğal dövründə belə Azərbaycan problemin sülh yolu ilə həllinə üstünlük verərək regional təhlükəsizliyin sülh yolu ilə təmininə üstünlük verib. Lakin qarşı tərəfin qeyri-konstruktiv mövqeyi bu səylərin nəticəsiz qalmasına səbəb olub - bu da Bakını öz yolundan döndərmədi. Vətən müharibəsi bu uzunmüddətli prosesin dönüş nöqtəsi oldu. Bu müharibə nəticəsində beynəlxalq hüququn prinsipləri bərpa edildi və regionda yeni reallıqlar formalaşdı. Əldə olunan nəticələr yalnız hərbi qələbə deyil, həm də siyasi və strateji uğur kimi qiymətləndirilir. Təsadüfi deyil ki, Azərəbaycan bu məsələdə mövqeyini açıq şəkildə ortaya qoyur - Prezident İlham Əliyev martın 12-də Bakıda keçirilən XIII Qlobal Bakı Forumundakı çıxışında vurğuladı ki, regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub. Bakı özünün konseptual inkişaf strategiyasını bu gün də davam etdirir. İnfrastruktur layihələrinin həyata keçirilməsi, azad edilmiş ərazilərin bərpası və iqtisadi inkişaf proqramlarının icrası bu siyasətin əsas komponentləridir. Bu addımlar regionun ümumi sabitliyinə və inkişafına xidmət edir. Beləliklə, Azərbaycanın həyata keçirdiyi təhlükəsizlik siyasəti yalnız milli maraqlara deyil, həm də regional sabitliyə yönəlib. Bu yanaşma Cənubi Qafqazın gələcəkdə daha təhlükəsiz və inkişaf etmiş regiona çevrilməsi üçün möhkəm zəmin yaradır.

***P.İSMAYILOV***




# WUF13- ə beynəlxalq maraq artır...

## Forumun təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilib

Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin mayın 7-də iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, WUF13-ün başlanmasına az vaxt qaldığını və mayın 17-dən 22-dək Bakı şəhərinin dünyanın şəhərsalma və dayanıqlı inkişaf gündəliyi üzrə ən mötəbər beynəlxalq platformalarından birinə ev sahibliyi edəcəyini diqqətə çatdırıb.

Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qlobal miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsinin artıq ənənə halını aldığını bildirib. Samir Nuriyev WUF13-ün Azərbaycanın müasir şəhərsalma baxışının, dayanıqlı inkişaf gündəliyinə verdiyi töhfələrin, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq modelinin beynəlxalq miqyasda təqdimatı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Cari 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin WUF13-ün əhəmiyyətini daha da artırdığı qeyd olunub. Belə ki, Forumun bu çərçivədə il ərzində həyata keçirilən tədbirlərin məntiqi davamı və əsas beynəlxalq mərhələsi kimi çıxış etdiyi diqqətə çatdırılıb.

Samir Nuriyev Forumda iştirak üçün bu günədək 177 ölkədən 28 mindən çox şəxsin qeydiyyatdan keçdiyini, onların təxminən yarısının xarici nümayəndələr təşkil etdiyini bildirərək, bunun WUF13-ə beynəlxalq marağın yüksək göstəricisi olduğunu qeyd edib.

Təşkilat Komitəsinin sədri Azərbaycanın təşəbbüsü ilə WUF tarixində ilk dəfə keçiriləcək Liderlərin Bəyanatları seqmentinin Forumun siyasi və substantiv baxımdan əsas yeniliklərindən biri olduğunu, bu toplantının şəhərsalma və dayanıqlı məskunlaşma məsələlərini ali səviyyəli qlobal müzakirə predmetinə çevirəcəyini diqqətə çatdırıb.

Liderlər seqmentinə, həmçinin Azərbaycanın sədrliyi ilə keçiriləcək WUF13 Nazirlər Görüşünə, Azərbaycan tərəfindən təşkil olunacaq Xüsusi Sessiyaya, Azərbaycan pavilyonunda nəzərdə tutulan tədbirlərə və işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin təqdimatına hazırlığın xüsusi diqqətdə saxlanılmasının vacibliyi vurğulanıb.

Daha sonra ümumi hazırlıq prosesinin gedişatı, substantiv, kommunikasiya, protokol, nəqliyyat və təşkilati-logistika sahələrində görülmüş işlər, habelə gündəlikdə duran digər məsələlər üzrə Təşkilat Komitəsinin üzvlərinin məruzələri dinlənilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikası Prezidentinin bu mötəbər tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, WUF13-ün Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi sahəsində formalaşmış müsbət təcrübəsinin növbəti uğurlu nümunəsinə çevriləcəyinə əminliyini bildirib.

Samir Nuriyev WUF13-ə hazırlıq prosesinin yekun mərhələsində aidiyyəti qurumlar tərəfindən müvafiq məsələlərin operativ və uzlaşdırılmış qaydada həll edilməsi, həmçinin bütün istiqamətlər üzrə işlərin daha da intensivləşdirilməsi və başa çatdırılması barədə tapşırıqlar verib.



# Beynəlxalq hüquq və siyasi qətiyyətin qarşısında...

## Jan Noel Baronun yalanları ifşa olundu

Azərbaycanın qətiyyəti ilə Cənubi Qafqazda sülh və sabitliyin yaranması bəzi destruktiv qüvvələri, erməni lobbisini narahat etdiyi kimi, Fransanın da "yuxusunu ərşə çəkib". Paris artıq 6 ildir ki, ədalətsiz və qərəzli formada Azərbaycana "təzyiq" göstərmək üçün bütün rıçaqlarını işə salıb - təbii ki, heç bir işə yaramayan bu addımlar nəticədə Fransanın özünün imicinə zərbə vurur. 2020-ci il Vətən müharibəsindən sonra addımbaşı Azərbaycana qarşı qarayaxma kampaniyası təşkil etmək, "beynəlxalq təzyiq" formalaşdırmaq, hətta ölkəmizə qarşı bəzi "sanksiyalar" yönəltmək kimi "arzular"a düşən Makron hakimiyyəti Milli Assambleyanın və Senatın əli ilə qərəzli "qətnamələr" belə qəbul etdirməyə çalışıblar - hətta Fransanın ölkəmizə qarşı apardığı əsassız düşmənçilik xəstə psixoloji durumu xatırladır. Ötən dövrdə bu ölkənin rəsmi şəxslərinin verdiyi açıqlamalar, qanunverici orqanlarının qəbul etdiyi qərarlar bunu deməyə əsas verir. Ucuz fəndlərə əl atan Fransa bu prosesdə Bakıya açıq əşkildə uduzduğunu həzm edə bilmir - bunun nəticəsidir ki, hələ də separatizm "arzuları" ilə yaşayır, qeyri-professional diplomatik "jarqon"a müraciət edir, Azərbaycanın suverenliyinə dil uzatmağa çalışır.

**Azərbaycanda "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur...**

Vurğulandığı kimi, Fransa ermənləri "dəstəkləmək" xatirinə hətta beynəlxalq hüququ belə ayaqlar altına alır - bu ölkənin ən səlaihiyyətli diplomatı belə bağışlanılmaz siyasi səhvlər "buraxır". Qeyd edək ki, mayın 6-da Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baro Fransa Senatında Azərbaycan əleyhinə səsləndirdiyi iddialarla öz ölkəsinin qeyri-demokratik, separatist, korporativ maraqların xidsətçisi olduğunu bir daha təsdiqləyib. Məsələyə münasibət bildirən Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bu iddiaların qətiyyətlə rədd edildiyini diqqətə çatdırıb. A.Hacızadə Jan Noel Baro tərəfindən Fransa Senatında Azərbaycan əleyhinə səsləndirdiyi iddialara dair şərhində bildirib ki, fransalı nazir tərəfindən Azərbaycanın suveren ərazisi olan Qarabağ bölgəsi ilə bağlı "Dağlıq Qarabağ" kimi ifadələrin istifadəsi qəbuledilməzdir: "Azərbaycanın öz suveren ərazilərində beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həyata keçirdiyi haqq-ədalət müharibəsindən sonra bölgədə davamlı sülh üçün şərait yarandığı bir dönəmdə Fransa tərəfinin Azərbaycanın öz əraziləri üzərində suverenliyini sual altına qoyan, mədəni və dini irsin qorunmasını şübhə altına alan bu kimi təhrikçi açıqlamaları qətiyyətlə pisləyirik".

2023-cü ilin sentyabrında baş verən arntiterror əməliyyatı Azərbaycanın suverenliyinin təmini ilə yanaşı, həm də mühüm bir tarixi ədaləti bərpa etdi. Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağdakı separatizm başa çatdı. 2021-ci il iyulun 7-də isə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalamaqla tarixi həqiqəti bərpa etdi - sənəddə respublikamızın iqtisadi rayonlarının sırasına Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarının adları da daxil edildi. Beləliklə, tarixi ədalətsizlik tamamilə aradan qaldırıldı. "Dağlıq" sözünün çıxarılması, bölgüdə "Qarabağ iqtisadi rayonu" ifadəsinin yer alması ilə süni bölgünün üzərindən birdəfəlik xətt çəkildi və Azərbaycanın suverenliyi təsbit edildi. Fransanın xarici işlər nazirinin bu faktı bilməməsi mümkün deyil - sadəcə olaraq, onların niyyəti bölgədə yeni qarışıqlıqlar salmaq, bu kimi təxribatçı ifadələrlə sülh prosesinə zərbə vurmaqdır.

**Erməni vandalizmi rəqəmlərdə...**

A.Hacızadə açıqlamasında Jan Noel Baronun digər yalanlarına da aydınlıq gətirib - o bildirib ki, Ermənistanın işğalı dövründə Azərbaycan ərazilərində yüzlərlə məscid və digər mədəni irs nümunələrinin dağıdılması faktını görməməzliyə vuran Fransa nazirinin işğal dönəmindən qalan bəzi tikililərin sökülməsi məsələsinə dair şərh verməsi, bu məsələdə Beynəlxalq Ədalət Məhkəməsində gedən prosesə yersiz istinadı ikili yanaşmanın bariz nümunəsidir. Azərbaycanın suveren ərazilərində yerləşən tarixi və dini abidələrimiz milli-mədəni irsimizdir və mənşəyindən, dünyəvi və ya dini mənsubiyyətindən asılı olmayaraq qorunur.



Görəsən, fransalı nazir ötən erməni işğalının davam etdiyi 30 il ərzində Azərbaycanın dağıdılmış, məhv edilmiş tarixi - dini abidələri haqda informpasiyaya malikdirmi? Ermənistan 30 illik işğalı dövründə Azərbaycanın Qarabağ və ətraf rayonlarında yüzlərlə tarixi, dini və mədəni abidəni sistemli şəkildə dağıdıb, mənimsəməyə çalışıb. İşğal altındakı ərazilərdə 400-dən çox dağıdılmış, vandalizmə məruz qalmış tarixi-dini abidə təsbit edilib - onlardan 67-si məscid, 144-ü məbəd, 192-si isə pirlər və ziyarətgahlardır. Əsassız iddialarla çıxış edən Jan Noel Baro bu erməni vandalizmi haqda niyə danışmır?

**UNESCO niyə gəlmədi?**

Fransanın UNESCO tərəfindən Azərbaycanın Qarabağ bölgəsinə qiymətləndirmə missiyasının reallaşması məsələsinə dair çağırışları həqiqətlərin açıq-aşkar təhrif edilməsidir. A.Hacızadə bildirib ki, məhz Azərbaycan dəfələrlə qiymətləndirmə missiyalarının reallaşdırılmasına çağırışlar etsə də, təəssüf ki, bu məhz Ermənistan və Fransa kimi ölkələrin məlum əngəlləri nəticəsində mümkün olmayıb. UNESCO-nun özü 2005-ci il hesabatında bu faktı təsdiqləyib.

Bəli, 2020-ci ildən etibarən Azərbaycan bütün dünyaya ermənilərin işğal etdikləri torpaqlarımızda törətdikləri vandalizmi nümayiş etdirir - hətta dağıdılmış Ağdam "Qafqazın Xirosiması" adını almışdı. Bu şəhərə səfər edən xarici ölkə nümayəndələri, səfirlər və diplomatlar törədilən cinayətlərin izlərini öz gözləri ilə gördülər. Amma UNESCO dəvət edilsə də, Ağdama gəlməkdən imtina etdi - çünki Ağdama gələcəyi təqdirdə dağıdılan abidələri, talan edilən qəbirstanlıqları, təhqir edilmiş məscidləri, minalanmış əraziləri görmüş olacaqdı. Bu faktları artıq məcburi şəkildə qeydə alacaq və Azərbaycan onlardan qeydə aldıqları faktlarla bağlı münasibət sərgiləməyi istəyəcəkdi - bu isə UNESCO-nun və Fransaya sərf etmirdi.

***P.İSMAYILOV***

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər



Mayın 7-də müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.









# Heydər Əliyevin dövlətçilik fəlsəfəsi: tarixi dəyərlər əsasında gələcəyə baxış

Mayın 7-də Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyevin dövlətçilik fəlsəfəsi: tarixi dəyərlər əsasında gələcəyə baxış" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, bu gün müstəqil Azərbaycanın qazandığı çoxsaylı nailiyyətlərin və möhtəşəm qələbələrin qürurunu yaşamaqla müdrik dövlət xadimi Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərini sonsuz minnətdarlıqla xatırlayırıq: "Ulu Öndər siyasi və ideoloji nöqteyi-nəzərdən bir-birindən fərqli iki dövrdə - istər SSRİ dönəmində, istərsə də dövlət müstəqilliyinin bərpasından sonra respublikamıza uğurla rəhbərlik edərək dövlətimiz üçün taleyüklü məsələlərin həllinə nail olmaqla millətimizin parlaq gələcəyini təmin etmişdir. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan olduqca mürəkkəb sınaqlardan keçmişdir. Onun güclü siyasi iradəsi, sarsılmaz qətiyyəti və dərin strateji baxışı sayəsində ölkəmiz xaosdan və parçalanma təhlükəsindən xilas olaraq sabitlik və inkişaf yoluna qədəm qoymuşdur. Ulu Öndər qeyd edirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün qanunun aliliyi, ictimai-siyasi institutların səmərəli fəaliyyəti təmin edilmiş, azərbaycançılıq ideologiyasına əsaslanan mütərəqqi siyasətlə cəmiyyətin bütün təbəqələri vahid amal ətrafında birləşdirilərək milli həmrəylik gücləndirilmişdir. Dövrün çağırışlarına uyğun həyata keçirilən balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursu ölkəmizin beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi layiqli yer tutmasına, milli maraqlarını, o cümlədən işğala məruz qalmış bir dövlət kimi haqlı mövqeyini qətiyyətlə müdafiə etməsinə imkan yaratmışdır. Müasir dövlətçilik tariximizin ən qürurverici məqamı - Azərbaycanın şanlı Zəfər zirvəsinə yüksəlməsi də Ulu Öndərimizin tükənməz siyasi irsi ilə bağlıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan amildir".

Tahir Budaqov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin milli maraqlara əsaslanan siyasəti ölkəmizin keyfiyyətcə yeni inkişaf mərhələsinə yüksəlməsini şərtləndirmişdir: "Qlobal proseslərə geniş təsir imkanına malik regional güc mərkəzinə çevrilən Azərbaycan öz ərazi bütövlüyü və mütləq suverenliyini təmin etdikdən sonra Cənubi Qafqazda faktiki sülh şəraitində qarşılıqlı etimad mühiti yaratmışdır. Hazırda işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işləri aparılır və Böyük Qayıdış uğurla davam etdirilir ki, bu da Azərbaycanın iqtisadi gücünü, siyasi iradəsini və gələcəyə inamını aydın şəkildə nümayiş etdirir. Bu gün qalib Azərbaycan xalqının iradəsini ifadə edən Yeni Azərbaycan Partiyası cəmiyyətin aparıcı siyasi qüvvəsi kimi Heydər Əliyev ideyalarına sadiq qalaraq öz fəaliyyətini dövrün çağırışlarına uyğun qurmaqla strateji hədəflərin gerçəkləşməsinə mühüm töhfələr verir".



YAP Sədrinin müavini bildirib ki, milli məqsədlərini ardıcıl şəkildə həyata keçirən müstəqil dövlətimiz möhkəm təməl üzərində gələcəyə doğru inamla irəliləyir: "Belə bir tarixi mərhələdə Heydər Əliyev irsini, Ulu Öndərin müəyyən etdiyi ideoloji xətti yaşatmaq, dövlətçiliyimizi daha da möhkəmləndirmək və Prezident İlham Əliyevin qarşımıza qoyduğu bütün vəzifələri yerinə yetirmək üçün hər birimiz milli maraqları daim qorumalı, dövlətə sədaqətlə xidmət etməliyik. Heydər Əliyev ideyaları yaşadıqca müstəqil Azərbaycan daha da güclənəcək və yeni uğurlara imza atacaqdır".



Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, Əməkdar incəsənət xadimi Ceyran Mahmudova çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixində yalnız qüdrətli dövlət xadimi, uzaqgörən siyasətçi kimi deyil, həm də milli-mənəvi dəyərlərimizin qoruyucusu, mədəniyyətimizin və incəsənətimizin əsl hamisi kimi əbədi yaşayır: "Onun adı çəkiləndə göz önündə təkcə siyasi uğurlar deyil, eyni zamanda, zəngin mədəni mühit, inkişaf edən incəsənət, qorunan milli kimlik canlanır. Heydər Əliyev fəaliyyətinin bütün mərhələlərində mədəniyyətə xüsusi diqqət yetirib. O, hələ Sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə milli mədəniyyətin inkişafı üçün böyük işlər görüb. Onun sonsuz qayğısı və diqqəti nəticəsində teatrlarımızın fəaliyyəti genişlənib, muzeylər zənginləşdirilib, kitabxanalar yenilənib. O dövrdə Azərbaycan incəsənəti təkcə ittifaq daxilində deyil, beynəlxalq səviyyədə də öz sözünü deməyə başlamışdı".



Rektor əlavə edib ki, Ulu Öndər Heydər Əliyev sənət adamlarını sadəcə yaradıcı insanlar kimi deyil, xalqın mənəvi sərvəti kimi dəyərləndirir, incəsənət xadimlərinə böyük ehtiram göstərir, onların yaradıcılığını yüksək qiymətləndirirdi: "Bəstəkarlar, yazıçılar, aktyorlar, rejissorlar, rəssamlar, bir sözlə, bütün yaradıcı insanlar Onun diqqət və qayğısını hiss edirdi".

Ceyran Mahmudova qeyd edib ki, müstəqillik illərində Heydər Əliyevin mədəniyyət sahəsində gördüyü işlər müstəsna əhəmiyyət kəsb edir: "Bu dövrdə tarixi abidələrin qorunması, milli irsin bərpası, folklorun, musiqinin, ədəbiyyatın inkişafı istiqamətində mühüm addımlar atıldı. Azərbaycan mədəniyyəti yeni bir mərhələyə qədəm qoydu. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi bu strateji xətt uğurla davam etdirilir. Prezident İlham Əliyev mədəniyyət və incəsənət sahəsini daim diqqətdə saxlayır".



Onun sözlərinə görə, Azərbaycanın müasir tarixində mühüm və şərəfli yer tutan 44 günlük Vətən müharibəsi dövlətimizin qüdrətini, xalqımızın sarsılmaz birliyini və Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf xəttinin uğurla davam etdirildiyini bir daha bütün dünyaya nümayiş etdirdi. "Qarabağda mədəni həyatın dirçəldilməsi istiqamətində mühüm addımlar atılır, Şuşa və digər şəhərlərimizdə beynəlxalq musiqi festivalları, mədəniyyət günləri, incəsənət tədbirləri təşkil olunur, Azərbaycan mədəniyyətinin zənginliyi artıq öz doğma məkanında yenidən səslənir", -deyən Ceyran Mahmudova əlavə edib ki, bu gün gənc nəslin inkişafı da dövlət siyasətinin prioritet məsələləri sırasındadır.



Rektor bildirib ki, gənc istedadların üzə çıxarılması, onların yaradıcılıq imkanlarının genişləndirilməsi daim dövlətin diqqət mərkəzindədir: "Bu kontekstdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Universitetimiz uzun illərdir ki, ölkəmizin mədəni həyatına töhfə verən peşəkar kadrlar yetişdirir. Çalışırıq ki, tələbələrimiz yalnız peşəkar sənətkar deyil, eyni zamanda, milli dəyərlərə bağlı vətəndaşlar kimi yetişsinlər. Çünki incəsənət həm də bir missiyadır. Bu missiya xalqın ruhunu yaşatmaq, onun tarixini, mədəniyyətini gələcəyə daşımaqdır".

Çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mübariz Qurbanlı bildirib ki, Azərbaycan dövlətinin söykəndiyi ideoloji və dövlətçilik prinsiplərinin əsasları Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni dövrün çağırışlarına uyğun olaraq yenilənmiş həmin prinsiplər Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapıb. Bunlar Heydər Əliyev yolu, müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, varislik və təkamül, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət və demokratik ənənələrin inkişafıdır. Bu prinsiplərin hər biri Heydər Əliyevin siyasi irsinin əsasını təşkil edən ideoloji məsələlərdir".

Mübariz Qurbanlı qeyd edib ki, müasir Azərbaycan dövlətinin formalaşması, möhkəmlənməsi və inkişafı Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji-siyasi kursun uğurla həyata keçirilməsinin nəticəsidir: "Odur ki, Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyəti Azərbaycanın bugünü və gələcəyi üçün mükəmməl siyasi irs kimi özünü göstərir. Bu siyasi irs Azərbaycan xalqının müstəqilliyi, güclü dövlətçilik, iqtisadi inkişaf, sosial rifah və xalqımızın milli birliyi kimi fundamental istiqamətləri əhatə edir".

Heydər Əliyevin siyasi irsinin Azərbaycanın inkişaf modelinin əsasını təşkil edən kompleks bir sistem olduğunu deyən YAP İdarə Heyətinin üzvü əlavə edib ki, bu, sabitlik, milli ideologiya, iqtisadi strategiya və institusional quruculuğun vəhdəti üzərində qurulub: "Bu strateji kurs Azərbaycanın uzunmüddətli inkişaf modelinin əsasını təşkil edir. Regionda və dünyada söz sahibi olan güclü və qalib Azərbaycan dövləti Heydər Əliyev irsinin və bu irsi layiqincə davam etdirən, dövrün çağırışlarına uyğun zənginləşdirən Prezident İlham Əliyev siyasi kursunun təntənəsidir" , - deyə M.Qurbanlı vurğulayıb.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi: "Onun adı yalnız siyasi iradə ilə deyil, həm də dövlətçilik təfəkkürü, milli ruh, strateji zəka və sabaha olan inamla bağlıdır. Ulu Öndərin dövlətçilik fəlsəfəsi təkcə idarəetmə modeli deyil, həm də azərbaycançılıq ideologiyasına söykənən strateji xəttdir. Məhz bu fəlsəfə sayəsində Azərbaycan müstəqilliyini qorudu, dövlətçiliyini möhkəmləndirdi və gələcəyə inamla addımladı".

Hicran Hüseynova qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin tarixi missiyası

davamı 4-cü səhifədə

# Heydər Əliyevin dövlətçilik fəlsəfəsi: tarixi dəyərlər əsasında gələcəyə baxış










əvvəli 3-cü səhifədə

ölkəmizin müstəqilliyini bərpa etməsi və sonrakı dövrdə özünü daha qabarıq şəkildə göstərib: “Onun üçün hər şeydən əziz xalqı, Vətəni və torpağı idi. Dəfələrlə özü, ailəsi təhlükəyə məruz qalsa da, bu inam və sevgidən bir an belə çəkinmədi. O, 20 Yanvar faciəsindən sonra dərhal sovet hökumətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayəti pislədi, Kommunist Partiyasını tərk etdi və Azərbaycan xalqı onun simasında yenidən öz liderini gördü. Onun Naxçıvan Muxtar Respublikasında fəaliyyəti isə xüsusi ilə diqqətəlayiq idi. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın Ali Məclisinin iclasında rəsmi dövlət bayrağı kimi tanınması tarixi hadisə idi. Milli dövlətçiliyin mürəkkəb böhranı fonunda 1992-ci ilin noyabr ayında yaradılan Yeni Azərbaycan Partiyası Azərbaycanın gələcək demokratik və suveren inkişafı uğrunda mübarizənin flaqmanına çevrildi”.

Ümummilli Liderin ailə dəyərlərinə olan münasibətindən bəhs edən Milli Məclisin komitə sədri Heydər Əliyevin “Ailə dəyərləri xalqımız üçün həmişə doğma olub, çox əziz olub və deyə bilərəm ki, ailə dəyərləri bizim milli dəyərlərimizdir” fikrini xatırladıb: “Fəxrlə demək olar ki, biz Heydər Əliyev irsinin Zəfər mərhələsini yaşayırıq. Prezident, Ali Baş Komandan, partiyamızın Sədri İlham Əliyev və respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Ulu Öndərin siyasi kursunu uğurla davam etdirir. Azərbaycan müstəqil dövlət olaraq daha da güclənib, dünya miqyasında söz sahibi olan ölkəyə çevrilib. Qarabağ Zəfəri, Böyük Qayıdış, regionun lider dövləti kimi irəli sürülən qlobal təşəbbüslər bir daha göstərir ki, Heydər Əliyevin dövlətçilik fəlsəfəsi bu gün yeni mərhələyə qədəm qoyub. Bu, Zəfər mərhələsidir. Ulu Öndər Heydər Əliyev irsi Azərbaycan xalqı üçün dövlətçilik məktəbi, inkişaf modeli və sabitliyin rəmzidir. Onun mirası təkcə tarix deyil, həm də gələcəyə uzanan yol xəritəsidir” ,- deyə Hicran Hüseynova vurğulayıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilmiş Ədalət Fərəcova orden təqdim edilib.




Göstərilən diqqətə və fəaliyyətinə verilən yüksək qiymətə görə dövlət başçısına təşəkkürünü bildirən Ədalət Fərəcov Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyalarının, Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin və Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətinin Azərbaycana möhtəşəm nailiyyətlər qazandırdığını, ölkəmizin tərəqqi və Zəfər zirvəsinə yüksələrək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıb.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra tədbirdə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş konsert proqramı təqdim olunub.

# YAP-ın təşəbbüsü ilə Tərtər rayonunda sosial layihə icra edilib







Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə Tərtər rayonunda daha bir sosial layihə icra edilib.

Yeni Azərbaycan Partiyasının (YAP) təşəbbüsü ilə Tərtər rayonunun Ələsgərli kəndində 200-dən çox ailənin məişət şəraitini yaxşılaşdıran texniki su xətti istifadəyə verilib. Layihə çərçivəsində, həmçinin kənd mərkəzində yeni park salınıb, ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Açılış mərasimində Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Anar Məmmədov, YAP Mərkəzi Aparatı rəhbərinin müavini Ramilə Bədəlova, Mərkəzi Aparatın İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli, YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov, partiya fəalları, şəhid ailələri, qazilər və rayon ziyalıları iştirak ediblər.

Mərasimdə çıxış edən Milli Məclisin deputatı Anar Məmmədov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı misilsiz xidmətlərindən bəhs edərək bildirib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kursun nəticəsində əldə edilən nailiyyətlər, ən əsası, şanlı Zəfərimiz dahi şəxsiyyətin ideyalarının təntənəsidir. Millət vəkili Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə həyata keçirilən sosial layihələrin önəmini diqqətə çatdırıb.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxışında dövlət başçısının bütün regionlar kimi, Tərtərin də sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxladığını deyib. O vurğulayıb ki, Ələsgərli kəndində yeni su xəttinin çəkilişi və parkın istifadəyə verilməsi regionlarda aparılan ardıcıl quruculuq işlərinin bariz nümunəsidir.

Daha sonra çıxış edən YAP Mərkəzi Aparatı rəhbərinin müavini Ramilə Bədəlova qeyd edib ki, bu layihə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi sosial inkişaf kursuna partiyanın növbəti töhfəsidir: “Ələsgərli kəndində 200 ailəni su ilə təmin etmək, ərazidə müasir istirahət guşəsi yaratmaq partiya fəallarının və seçicilərin vahid amal uğrunda birləşməsinin nəticəsidir. Bu, partiyamızın xalqla birliyinin, insanların gündəlik qayğılarına olan həssaslığının bariz nümunəsidir”.

YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov isə qeyd edib ki, yeni su xəttinin çəkilişi insanların rahatlığı və rifahına xidmət edir. O, dövlət başçısının “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır” fikrini xatırladaraq YAP-ın mühüm sosial təşəbbüslər həyata keçirdiyini qeyd edib.

Mərasimdə çıxış edən kənd sakinləri və şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Sonra şəhid Ruslan Şahbazovun ailəsi ziyarət edilib. Görüş







# Milli Qurtuluşdan tarixi Zəfərə: əbədiyaşar ideyaların təntənəsi



Ölkəni məhv olmaq təhlükəsindən xilas edən, dövləti qurub yaradan, ömrünü xalqa həsr edən insanları dahi şəxsiyyət adlandırırlar. Tarix isə görkəmli siyasi xadimləri çox nadir hallarda yetişdirir və bu xoşbəxtlik hər millətə nəsib olmur. Çünki müdrik şəxsiyyətlər xalqların taleyinə təsir göstərmək gücünə malikdirlər. Ulu Öndər Heydər Əliyev Azərbaycanın müasir dövlətçilik tarixində müstəsna rol oynamış əbədiyaşar lider kimi yadda qalmışdır. Məhz Ümummilli Liderin adı bilavasitə xilaskarlıq missiyası və genişmiqyaslı quruculuq fəaliyyəti ilə bağlıdır.

**Liderlik fenomeni və xilaskarlıq missiyası: xalqa xidmət nümunəsi**

Heydər Əliyevin fəaliyyətinin hər bir mərhələsinə nəzər saldıqda aydın görünür ki, Ulu Öndər ömrü boyu xalqın və dövlətin mənafeyinə xidmət etmiş, bu şərəfli yolda daim fədakarlıqla çalışmışdır. Belə ki, Ümummilli Liderin ölkəmizə rəhbərlik etdiyi hər iki dövrü bu müqəddəs amallar uğrunda sədaqətli xidmətin bariz nümunəsi kimi xarakterizə etmək olar.

1992-ci il oktyabrın 16-da məşhur “91-lər”in “Səs” qəzeti vasitəsilə Ulu Öndər Heydər Əliyevə ünvanladıqları müraciət həmin dövrün mürəkkəb ictimai-siyasi şəraitində mühüm tarixi əhəmiyyət daşıyan addım kimi qiymətləndirilir. Ölkədə hökm sürən qeyri-sabitlik, idarəetmədə yaşanan böhran və gələcəyə inamsızlıq cəmiyyətdə yeni siyasi qüvvəyə ehtiyac yaratmışdı. Məhz bu şəraitdə irəli sürülən təşəbbüs geniş ictimai dəstək qazandı və qısa müddət ərzində mütəşəkkil siyasi hərəkatın formalaşmasına zəmin yaratdı.

Bu prosesin məntiqi davamı olaraq, 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Bu əlamətdar hadisə gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm mərhələ kimi tarixə düşdü. Təsis konfransında qəbul olunan qərarlar partiyanın ideoloji əsaslarını formalaşdırdı, milli maraqlara əsaslanan siyasi xətt müəyyən edildi. Qısa müddət ərzində geniş ictimai dəstək qazanan bu siyasi qüvvə ölkənin ictimai-siyasi həyatında fəal rol oynamağa başladı və sonrakı dövrdə sabitliyin təmin olunmasına, dövlətçiliyin möhkəmlənməsinə mühüm töhfələr verdi.

1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı respublikamızın taleyində mühüm dönüş nöqtəsi oldu. Onun zəngin siyasi təcrübəsi və qətiyyətli qərarları nəticəsində ölkəmizdə ictimai-siyasi sabitlik bərpa edildi, dövlət strukturlarının fəaliyyəti təmin olundu və gələcək inkişaf üçün möhkəm təməl formalaşdırıldı. Bu keşməkeşli dövr dövlətçilik tarixində qurtuluş mərhələsi kimi qiymətləndirilir.

**Sabitlikdən inkişafa: müstəqil dövlət quruculuğunun ideoloji əsasları**

1994-cü il sentyabrın 20-də Ümummilli Lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və siyasi iradəsi ilə imzalanan və “Əsrin müqaviləsi” kimi tarixə düşən neft sazişi ölkəmizin siyasi-iqtisadi mövqeyində fundamental dönüş nöqtəsinə çevrildi.

Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadiyyatın dayanıqlı inkişafı ilə yanaşı, dövlət idarəçiliyi sahəsində genişmiqyaslı islahatlar həyata keçirildi, hüquqi, dünyəvi və demokratik dövlət quruculuğunun möhkəm təməli formalaşdırıldı. 1995-ci il noyabrın 12-də keçirilən referendum (ümumxalq səsverməsi) nəticəsində Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. Bununla paralel olaraq, ana dilinin dövlət səviyyəsində qorunması və inkişaf etdirilməsi, milli-mədəni irsin sistemli şəkildə təbliği dövlət siyasətinin prioritetlərindən birinə çevrildi.

Ulu Öndər Heydər Əliyev milli ideologiya məsələsinə xüsusi həssaslıqla yanaşmış, dövlətin ideoloji əsaslarının formalaşdırılmasını strateji prioritet kimi müəyyən etmişdir. Onun məqsədyönlü və ardıcıl siyasəti nəticəsində azərbaycançılıq ideologiyası təkcə siyasi baxışlar sistemi deyil, həm də cəmiyyətin birləşdirici gücünü ifadə edən fundamental milli konsepsiya səviyyəsinə yüksəlmişdir. Bu ideologiya milli birliyin möhkəmləndirilməsi, dövlətçilik ənənələrinin qorunub saxlanılması və milli-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsi kimi mühüm vəzifələri özündə ehtiva etmişdir. Ulu Öndərin bu istiqamətdə atdığı addımlar cəmiyyət daxilində ideoloji sabitliyin formalaşmasına, milli özünüdərkin güclənməsinə və dövlətə olan inamın artmasına ciddi töhfə vermişdir.

Eyni zamanda, azərbaycançılıq məfkurəsi ölkənin uzunmüddətli inkişaf strategiyasının ideoloji dayağı kimi çıxış etmiş, dövlət idarəçiliyində milli maraqların üstün tutulmasına şərait yaratmışdır. Bu yanaşma müxtəlif sosial qrupların bir amal ətrafında birləşməsinə, sabitliyin və ictimai həmrəyliyin təmin olunmasına xidmət etmişdir. Nəticə etibarilə, milli ideologiyanın formalaşması dövlət quruculuğunun möhkəm təməl daşlarından birinə çevrilmişdir.

**Balanslaşdırılmış xarici siyasət: milli maraqları təmin edən amil**

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə həyata keçirilən xarici siyasət kursu milli maraqlara əsaslanan, eyni zamanda beynəlxalq reallıqları nəzərə alan yanaşma ilə səciyyələnmişdir. Bu siyasətin əsas məqsədi dövlətin beynəlxalq aləmdə etibarlı və nüfuzlu aktor kimi möhkəmlənməsini təmin etmək olmuşdur. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində ölkənin beynəlxalq əlaqələri yeni mərhələyə qədəm qoymuş, müxtəlif dövlətlər və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri genişləndirilmişdir. Bu proses həm siyasi, həm iqtisadi, həm də humanitar sahələri əhatə edərək çoxşaxəli xarakter daşımışdır.

Xarici siyasətin balanslı xarakteri dövlətin maraqlarının qorunmasında çevik və düşünülmüş diplomatik addımların atılmasını təmin etmişdir. Nəticədə, ölkə beynəlxalq sistemdə etibarlı tərəfdaş kimi qəbul olunmuş, regional və qlobal əməkdaşlıq platformalarında fəal iştirak edən mühüm aktorlardan birinə çevrilmişdir. Bu balanslaşdırılmış xarici siyasət xətti dövlətin beynəlxalq mövqeyinin möhkəmlənməsində, iqtisadi inteqrasiyanın genişlənməsində və strateji tərəfdaşlıqların qurulmasında həlledici rol oynamışdır.

Uzaqgörən siyasəti sayəsində Azərbaycanın hər sahədə mütərəqqi inkişafını və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Ümummilli Lider Heydər Əliyev həmin istiqamətdə göstərdiyi gərgin səylərlə yanaşı, Cənubi Qafqazın sülhün bərqərar olduğu bir məkana çevrilməsi naminə uğurlu fəaliyyəti ilə də hər zaman hörmət və ehtiramla xatırlanacaqdır. Onun dəyərli töhfələri ilə reallaşdırılan irimiqyaslı layihələr dövlətlər və xalqlar arasında əməkdaşlıq körpüsü rolunu oynayır. Sarsılmaz təməllər üzərində qurulan bu əlaqələr hazırkı dövrdə uğurla inkişaf etdirilir.

Dövlətimizin başçısı İlham Əliyev qeyd etmişdir: “Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlı üçün şərəfli vəzifədir”.

**Media siyasəti: demokratik dəyərlərin təşviqi**

Ulu Öndər Heydər Əliyevin fəaliyyətində mətbuatın inkişafı və söz azadlığının təmin olunması xüsusi yer tutmuşdur. O, kütləvi informasiya vasitələrini cəmiyyətin inkişafında mühüm amil kimi qiymətləndirir, mətbuatın dövlət və xalq arasında körpü rolunu oynadığını daim vurğulamışdır. Ümummilli Liderin rəhbərliyi dövründə mətbuatın fəaliyyətinin genişləndirilməsi və maddi-texniki bazasının gücləndirilməsi istiqamətində məqsədyönlü addımlar atılmışdır.

Heydər Əliyevin 1998-ci il 6 avqust tarixində imzaladığı fərmanla ölkəmizdə mətbuat üzərində senzuranın aradan qaldırılması bu sahədə yeni mərhələnin əsasını qoydu və söz azadlığının təmin olunması baxımından tarixi əhəmiyyət kəsb etdi. Senzuranın aradan qaldırılması ilə kütləvi informasiya vasitələri daha sərbəst fəaliyyət göstərmək imkanı əldə etdi, cəmiyyətdə fikir plüralizmi genişləndi.

Ulu Öndər mətbuatın yalnız azad deyil, həm də məsuliyyətli olmasının vacibliyini önə çəkirdi. O qeyd edirdi ki, jurnalistlər obyektiv, qərəzsiz və peşəkar fəaliyyət göstərməli, cəmiyyətin düzgün məlumatlandırılmasına xidmət etməlidirlər. Bu baxımdan, jurnalistikanın etik prinsiplərə əsaslanması və peşəkarlıq səviyyəsinin artırılması istiqamətində də mühüm təşəbbüslər irəli sürülürdü.

Heydər Əliyevin diqqət yetirdiyi əsas məsələlərdən biri də mətbuatın maddi vəziyyətinin yaxşılaşdırılması idi. Onun təşəbbüsü ilə qəzet və jurnallara dövlət dəstəyi göstərilmiş, çap imkanlarının genişləndirilməsi üçün şərait yaradılmış, media qurumlarının fəaliyyətinin davamlılığı təmin olunmuşdur. Eyni zamanda, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması, onların fəaliyyətinə dövlət qayğısının artırılması istiqamətində mühüm qərarlar qəbul edilmişdir.

Ümummilli Lider mətbuatın cəmiyyətin maarifləndirilməsində rolunu da yüksək qiymətləndirirdi. O, medianın milli-mənəvi dəyərlərin qorunması, vətənpərvərlik ruhunun aşılanması və ictimai şüurun formalaşmasında əvəzsiz rol oynadığını bildirirdi. Bu səbəbdən də mətbuatın inkişafı yalnız informasiya sahəsinin deyil, bütövlükdə cəmiyyətin inkişafının vacib tərkib hissəsi kimi dəyərləndirilir.

Ümumilikdə, Heydər Əliyevin mətbuata göstərdiyi diqqət və qayğı bu sahənin inkişafında mühüm rol oynamış, müasir media mühitinin formalaşmasına zəmin yaratmışdır. Onun müəyyən etdiyi prinsiplər bu gün də aktual olaraq qalır və mətbuatın azad, peşəkar və məsuliyyətli fəaliyyətinin təmin olunmasında mühüm istiqamətverici rol oynayır.

**Qətiyyətli siyasi iradə: şanlı Zəfərə doğru**

Dahi şəxsiyyətin ən böyük arzusu ölkəmizin ərazi bütövlüyünün təmin olunması, tarixi ədalətin bərpası idi. Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti sayəsində artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin əsl mahiyyəti beynəlxalq ictimaiyyətə çatdırıldı, məsələnin həlli üçün möhkəm hüquqi baza formalaşdı. Azərbaycanın ətrafında yaradılan informasiya blokadası yarıldı, erməni yalanları ifşa edildi.

Ümummilli Lider torpaqlarımızın öz tarixi sahibinə qovuşacağına əminliyini ifadə edirdi. Heydər Əliyevin 2003-cü il oktyabrın 1-də xalqa müraciəti bu əminliyin təsdiqi oldu. “Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər”, - deyə qeyd edən Ulu Öndər Heydər Əliyev belə bir əminliyi də ifadə etmişdir ki, axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək.

**Tarixi ədalətin bərpası və yeni strateji hədəflər**

2003-cü ildə ölkəmizdə keçirilən prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyev hər bir vədini konkret əməli işlə təsdiqləmiş və ata vəsiyyətini yerinə yetirərək xalqımızı şanlı Zəfər zirvəsinə yüksəltmişdir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli torpaqlarımızı azad etmişdir.

Artıq işğaldan azad edilmiş ərazilərimizdə yeni həyat başlayıb, keçmiş məcburi köçkünlərin mərhələli şəkildə doğma yurd-yuvalarına qayıdışı xalqımızda böyük qürur hissi doğurur. Bu torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, müasir infrastruktur yaradılır, yaşayış məntəqələri yenidən salınır və sosial obyektlər istifadəyə verilir. Eyni zamanda, iqtisadi fəaliyyətin canlandırılması, yeni iş yerlərinin açılması və dayanıqlı məskunlaşmanın təmin edilməsi istiqamətində ardıcıl addımlar atılır. Bütün bunlar həmin ərazilərin yenidən dirçəldiyini və bölgələrdə davamlı inkişafın əsaslarının formalaşdırıldığını göstərir.

Nəticə etibarilə, qalib xalqın qalib Lideri İlham Əliyev strateji hədəfləri reallığa çevirməklə sözünün imzası qədər dəyərli olduğunu təsdiqləyir. Heç şübhəsiz, Heydər Əliyev yolu bundan sonra da Azərbaycana möhtəşəm nailiyyətlər qazandıracaqdır.



*Xatirə Əliyeva,*
*Əməkdar jurnalist, siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Heydər Əliyevin əbədiyaşar ideyaları: davamlı inkişafın strateji yol xəritəsi

Müasir dövlət quruculuğunun memarı, uzaqgörən siyasətçi, Ulu Öndər Heydər Əliyevin doğum günü - 10 may tarixi hər il ölkəmizdə böyük hörmət və ehtiramla qeyd edilir. Heydər Əliyevin siyasi fəaliyyəti bütövlükdə müasir dövlətçiliyin formalaşma mərhələsinin əsasını təşkil etmiş, Ümummilli Liderin bu gün də uğurla davam etdirilən strateji inkişaf xətti möhkəm ideoloji təməl yaratmışdır.

Ulu Öndər Heydər Əliyevin Sovet dövründəki fəaliyyəti ölkəmizin hərtərəfli inkişafında mühüm mərhələ olmuşdur. 1969-cu ildən etibarən respublikanın rəhbərliyinə gələn Ümummilli Lider qısa müddət ərzində iqtisadiyyatın bütün sahələrində köklü dəyişikliklər həyata keçirmiş, sənayeləşmə prosesini sürətləndirmiş və kənd təsərrüfatının inkişafını təmin etmişdir. Yeni sənaye müəssisələrinin yaradılması, istehsal sahələrinin genişləndirilməsi və texnoloji yeniliklərin tətbiqi nəticəsində iqtisadi göstəricilər əhəmiyyətli dərəcədə yüksəlmişdir. Eyni zamanda, milli kadr potensialının formalaşdırılması xüsusi strateji əhəmiyyət daşımışdır. Gənclərin ittifaqın aparıcı ali məktəblərinə göndərilməsi, onların yüksək ixtisaslı mütəxəssis kimi yetişdirilməsi gələcək dövlət idarəçiliyinin əsasını təşkil etmişdir. Təhsil və elm sahəsinə göstərilən diqqət nəticəsində intellektual potensial güclənmiş, yeni nəsil peşəkarlar formalaşmışdır. Sosial və mədəni sahələrdə həyata keçirilən genişmiqyaslı layihələr isə cəmiyyətin ümumi inkişafına, milli-mənəvi dəyərlərin qorunmasına və ictimai rifahın yüksəlməsinə töhfə vermişdir.

1990-cı illərin əvvəllərində ölkəmizdə yaranmış ağır ictimai-siyasi vəziyyət dövlətçiliyi ciddi böhranla üzüzə qoymuşdur. Belə bir mürəkkəb dövrdə - 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı tarixi dönüş nöqtəsinə çevrildi. Onun qətiyyətli və uzaqgörən siyasəti nəticəsində ölkədə hökm sürən xaos və qarşıdurma meylləri aradan qaldırıldı, ictimai-siyasi sabitlik təmin olundu və dövlət idarəetmə sistemi bərpa edildi.

1994-cü il mayın 12-də Ermənistanla atəşkəs sazişinin imzalanması ilə regionda nisbi sabitlik yarandı. Bu addım həm insan itkilərinin azalmasına, həm də dövlətin daxili inkişaf proseslərinə fokuslanmasına şərait yaratdı. Nəticədə, növbəti dövrdə siyasi və iqtisadi islahatların həyata keçirilməsi üçün əlverişli mühit formalaşdı.

1994-cü il sentyabrın 20-də imzalanan və tarixə "Əsrin müqaviləsi" adı ilə düşən neft sazişi dövlətin iqtisadi inkişaf strategiyasında dönüş nöqtəsi oldu. Bu saziş ölkəmizə iri həcmli xarici investisiyaların cəlb olunmasına şərait yaratdı. Enerji resurslarının səmərəli istifadəsi və yeni texnologiyaların tətbiqi nəticəsində iqtisadiyyatın strateji sahəsi olan neft-qaz sektoru sürətlə inkişaf etdi. Eyni zamanda, "Əsrin müqaviləsi" yeni nəqliyyat və ixrac marşrutlarının formalaşmasına təkan verdi, dövlətimizin geosiyasi mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirdi.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində fundamental islahatlar həyata keçirildi. Nizami və peşəkar silahlı qüvvələrin formalaşdırılması, vahid komandanlıq sisteminin yaradılması və hərbi intizamın gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər görüldü. Ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi, hərbi kadr hazırlığının təkmilləşdirilməsi və müdafiə qabiliyyətinin artırılması dövlət təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadı.

Heydər Əliyevin sosial-iqtisadi siyasəti genişmiqyaslı islahatlarla xarakterizə olunurdu. Bazar iqtisadiyyatına keçid mərhələli şəkildə həyata keçirildi, sahibkarlığın inkişafı üçün əlverişli mühit yaradıldı və hüquqi baza formalaşdırıldı. Özəlləşdirmə proqramları iqtisadiyyatın strukturunun yenilənməsinə və rəqabət mühitinin formalaşmasına səbəb oldu. Regionların inkişafı, infrastrukturun yenilənməsi və yeni iş yerlərinin yaradılması əhalinin rifah halının yüksəlməsinə xidmət etdi və iqtisadi dayanıqlığı gücləndirdi.

Ümummilli Lider Heydər Əliyevin dövlət siyasətində təhsil sahəsi strateji prioritet istiqamətlərdən biri kimi cəmiyyətin uzunmüddətli inkişafında həlledici rol oynamışdır. Onun rəhbərliyi ilə təhsil milli inkişafın əsas dayağı, insan kapitalının formalaşmasının başlıca mənbəyi kimi dəyərləndirilmişdir. Bu yanaşma nəticəsində təhsil sistemində genişmiqyaslı və köklü islahatlar həyata keçirilmiş, onun məzmunu və strukturu müasir tələblərə uyğunlaşdırılmışdır. Məqsəd savadlı, peşəkar və milli-mənəvi dəyərlərə bağlı yeni nəsil yetişdirmək olmuşdur.



Heydər Əliyevin təşəbbüsü ilə təhsil infrastrukturunun gücləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Respublikanın müxtəlif regionlarında yeni məktəblərin tikintisi, mövcud təhsil müəssisələrinin əsaslı təmiri və müasir avadanlıqlarla təmin olunması tədris şəraitinin keyfiyyətcə yaxşılaşdırılmasına səbəb olmuşdur. Xüsusilə kənd və ucqar bölgələrdə təhsilin əlçatanlığının artırılması sosial bərabərliyin təmin olunması baxımından mühüm əhəmiyyət daşımışdır. Təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi tədris prosesinin daha səmərəli təşkilinə imkan yaratmışdır.

Təhsil sistemində aparılan islahatların mühüm istiqamətlərindən biri də tədris proqramlarının yenilənməsi və müasir pedaqoji metodların tətbiqi olmuşdur. Dünya təhsil standartlarına uyğun proqramların hazırlanması və interaktiv tədris üsullarının genişləndirilməsi təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət etmişdir. Müəllimlərin peşəkarlığının artırılması, onların ixtisasartırma kurslarına cəlb olunması və pedaqoji kadrların hazırlanmasına xüsusi diqqət yetirilməsi təhsil sisteminin inkişafında mühüm rol oynamışdır.

Eyni zamanda, ali təhsil müəssisələrinin elmi potensialının gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilmişdir. Universitetlərin maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi tədqiqatların genişləndirilməsi və beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulması ali təhsilin keyfiyyətinə müsbət təsir göstərmişdir. Elmi-tədqiqat institutlarının fəaliyyətinin gücləndirilməsi və innovativ yanaşmaların tətbiqi bu sahənin inkişafına təkan vermişdir.

Xaricdə təhsil imkanlarının genişləndirilməsi Ulu Öndər Heydər Əliyevin təhsil strategiyasının mühüm istiqamətlərindən biri olmuşdur. Gənclərin dünyanın aparıcı universitetlərində təhsil alması üçün şərait yaradılmış, dövlət proqramları vasitəsilə onların beynəlxalq bilik və təcrübə qazanması təmin edilmişdir. Xaricdə təhsil alan gənclərin ölkəyə qayıdaraq müxtəlif sahələrdə fəaliyyət göstərməsi yüksək ixtisaslı kadr potensialının formalaşmasına ciddi töhfə vermişdir.

Ümumilikdə, Ümummilli Lider Heydər Əliyevin təhsil siyasəti ölkənin gələcək inkişaf strategiyasının əsas dayaqlarından birini təşkil etmişdir. Onun müəyyən etdiyi xətt bu gün də təhsil sisteminin modernləşdirilməsində və insan kapitalının inkişafında mühüm rol oynayır. Təhsil sahəsində həyata keçirilən bu genişmiqyaslı islahatlar nəticəsində ölkənin sosial-iqtisadi və mədəni inkişafına dayanıqlı zəmin yaradılmışdır. Bu siyasət gələcək nəsillərin daha savadlı, peşəkar və milli dəyərlərə sadiq yetişməsinə xidmət edən möhkəm bir təməl kimi qiymətləndirilir.

Səhiyyə sahəsində həyata keçirilən siyasət əhalinin sağlamlığının qorunmasına və tibbi xidmətlərin keyfiyyətinin artırılmasına yönəlmişdir. Yeni xəstəxanalar və tibb müəssisələrinin tikilməsi, mövcud səhiyyə infrastrukturunun müasirləşdirilməsi və müasir tibbi avadanlıqlarla təmin edilməsi mühüm nəticələr vermişdir. Profilaktik tədbirlərin gücləndirilməsi və müalicə metodlarının təkmilləşdirilməsi əhalinin sağlamlıq göstəricilərinin yaxşılaşmasına səbəb olmuşdur.

Heydər Əliyevin xarici siyasəti milli maraqlara əsaslanan, balanslı və praqmatik yanaşma ilə formalaşmışdır. Müxtəlif dövlətlərlə qarşılıqlı faydalı münasibətlər qurulmuş, beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndirilmiş və diplomatik fəaliyyət gücləndirilmişdir. Enerji və nəqliyyat layihələri vasitəsilə ölkə qlobal iqtisadi sistemə inteqrasiya olunmuş və beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınmışdır.

Ulu Öndər Heydər Əliyevin strateji dövlətçilik xətti Prezident İlham Əliyev tərəfindən ardıcıl, məqsədyönlü və müasir çağırışlara uyğun şəkildə uğurla davam etdirilir. Bu siyasi kurs dövlətin suverenliyinin möhkəmləndirilməsi, milli maraqların qətiyyətlə qorunması və uzunmüddətli inkişafın təmin olunması baxımından həlledici rol oynamışdır. Xüsusilə 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi nəticəsində əldə olunan tarixi Zəfər ölkəmizin ərazi bütövlüyünün bərpası baxımından mühüm dönüş nöqtəsi olmuşdur. Bu prosesin davamı olaraq 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlət suverenliyi təmin edilmiş, Qarabağdakı qeyri-qanuni erməni silahlı birləşmələri zərərsizləşdirilmiş və konstitusiya quruluşu bütün ərazilərdə bərqərar olunmuşdur. Əldə olunan bu tarixi uğurlar dövlətimizin hərbi-siyasi gücünü nümayiş etdirmişdir. Eyni zamanda, bu nəticələr uzun illər ərzində formalaşdırılmış dövlətçilik konsepsiyasının praktiki təzahürü kimi çıxış edir.

Hazırda işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən Böyük Qayıdış Proqramı genişmiqyaslı və kompleks xarakter daşıyır. Bu proqram çərçivəsində şəhər və kəndlərin yenidən qurulması, müasir infrastrukturun yaradılması, nəqliyyat-kommunikasiya xətlərinin bərpası və sosial obyektlərin inşası istiqamətində sürətli və planlı işlər görülür. Məqsəd yalnız fiziki bərpa deyil, eyni zamanda dayanıqlı yaşayış mühitinin formalaşdırılması, iqtisadi aktivliyin artırılması və əhalinin doğma yurdlarına təhlükəsiz və rahat şəkildə qayıdışının təmin olunmasıdır.

Ümumilikdə, Heydər Əliyevin formalaşdırdığı siyasi kurs dövlətin inkişaf strategiyasının əsas dayağı olaraq qalır. Onun müəyyən etdiyi dövlətçilik fəlsəfəsi müasir dövrdə yeni reallıqlara uyğun şəkildə inkişaf etdirilir, milli maraqların qorunmasına və davamlı tərəqqiyə xidmət edir.



*Nazimə Şamıyeva,*
*YAP Füzuli rayon təşkilatının sədri*

# Ümummilli lider Heydər Əliyev - müasir Azərbaycan dövlətçiliyinin memarı və əbədiyaşar lider

Azərbaycan xalqının tarixində elə şəxsiyyətlər var ki, onların fəaliyyəti bir dövrü deyil, bütöv bir epoxanı əhatə edir. Ümummilli Lider Heydər Əliyev məhz belə nadir simalardandır. Onun həyat yolu, siyasi irsi və dövlətçilik fəlsəfəsi bu gün də müstəqil Azərbaycanın inkişafının əsas istiqamətlərini müəyyənləşdirir. Ulu Öndərin anadan olmasının 103-cü ildönümü münasibətilə onun çoxşaxəli fəaliyyətinə nəzər salmaq, xalqımız qarşısındakı misilsiz xidmətlərini bir daha xatırlamaq hər bir azərbaycanlının mənəvi borcudur.

Heydər Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində dünyaya göz açmışdır. Sadə ailədə böyüyən bu dahi şəxsiyyət hələ gənc yaşlarından zəhmətsevərliyi, intizamı və yüksək intellekti ilə seçilmişdir. Təhsil aldığı illərdən etibarən dövlət idarəçiliyinə maraq göstərən Heydər Əliyevin həyat yolu sonradan onu böyük siyasətə aparmışdır. Onun fəaliyyətinin ilk mərhələsi təhlükəsizlik orqanlarında çalışdığı dövrü əhatə edir. Bu illərdə qazandığı zəngin təcrübə gələcəkdə dövlət idarəçiliyində mühüm rol oynamasına zəmin yaratdı.

1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ölkəmizin tarixində dönüş nöqtəsi oldu. Həmin dövrdə Azərbaycan iqtisadi və sosial baxımdan geridə qalmış respublikalar sırasında idi. Lakin Ulu Öndərin uzaqgörən siyasəti, qətiyyətli qərarları nəticəsində qısa müddətdə respublikada genişmiqyaslı islahatlara start verildi. Sənaye, kənd təsərrüfatı, elm, təhsil və mədəniyyət sahələrində əldə olunan uğurlar Azərbaycanın inkişaf yoluna çıxmasını təmin etdi. Məhz həmin illərdə yaradılmış iqtisadi potensial sonrakı müstəqillik dövründə ölkəmizin dayanıqlı inkişafının əsasını təşkil etdi.

Heydər Əliyevin fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmamış, o, keçmiş SSRİ məkanında da nüfuzlu siyasi xadim kimi tanınmışdır. 1982-ci ildə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin olunması onun yüksək idarəçilik qabiliyyətinin göstəricisi idi. Bu vəzifədə çalışarkən o, ittifaqın iqtisadi və sosial həyatının mühüm sahələrinə rəhbərlik etmiş, genişmiqyaslı layihələrin həyata keçirilməsində iştirak etmişdir. Lakin 1987-ci ildə SSRİ rəhbərliyinin yanlış siyasətinə etiraz olaraq vəzifəsindən istefa verməsi onun prinsipial mövqeyinin bariz nümunəsi idi.

1990-cı ilin yanvar hadisələri zamanı Heydər Əliyevin göstərdiyi siyasi cəsarət xüsusi qeyd olunmalıdır. 20 Yanvar faciəsindən dərhal sonra Moskvada Azərbaycanın daimi nümayəndəliyində etdiyi çıxışla o, sovet rəhbərliyinin cinayətkar siyasətini ifşa edərək və günahkarların cəzalandırılmasını tələb etdi. Bu addım onun xalqına olan bağlılığının, milli maraqları hər şeydən üstün tutduğunun açıq təzahürü idi.

1990-cı ildə Azərbaycana qayıdan Heydər Əliyev fəaliyyətini Naxçıvan Muxtar Respublikasında davam etdirdi. Naxçıvanda həyata keçirdiyi mühüm qərarlar - üçrəngli bayrağın dövlət rəmzi kimi qəbul edilməsi, sovet atributlarının ləğvi, demokratik idarəçilik prinsiplərinin tətbiqi - müstəqil dövlətçiliyin ideoloji əsaslarını formalaşdırdı. Bu dövr Ulu Öndərin dövlətçilik konsepsiyasının praktik həyata keçdiyi mühüm mərhələ kimi tarixə düşdü.

1993-cü ildə ölkədə yaranmış dərin siyasi böhran, vətəndaş qarşıdurması və dövlət müstəqilliyinin itirilməsi təhlükəsi Azərbaycan xalqını çıxılmaz vəziyyətə salmışdı. Belə bir çətin məqamda xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkənin taleyində həlledici rol oynadı. Onun 15 iyun 1993-cü ildə Azərbaycan Ali Sovetinin Sədri seçilməsi tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu hadisə dövlətçiliyimizin xilası, sabitliyin bərpası və inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

1993-cü ilin oktyabrında ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev qısa müddətdə ölkədə sabitliyi təmin etdi. Onun rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində siyasi sabitlik bərpa olundu, iqtisadi tənəzzülün qarşısı alındı, dövlət institutları formalaşdırıldı. Hüquqi dövlət quruculuğu istiqamətində atılan addımlar, yeni Konstitusiyanın qəbul edilməsi, bazar iqtisadiyyatına keçid və beynəlxalq əlaqələrin genişləndirilməsi Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi.

Ulu Öndərin həyata keçirdiyi neft strategiyası Azərbaycanın iqtisadi inkişafında mühüm rol oynadı. Xarici investisiyaların cəlb edilməsi, beynəlxalq enerji layihələrinin reallaşdırılması ölkəmizin iqtisadi müstəqilliyini möhkəmləndirdi. Bu siyasət nəticəsində Azərbaycan regionun aparıcı dövlətinə çevrildi və beynəlxalq arenada mövqeyini gücləndirdi.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin əsasını azərbaycançılıq ideologiyası təşkil edir. Bu ideologiya milli birlik, vətənpərvərlik, dövlətə sədaqət kimi dəyərləri özündə ehtiva edir. Onun formalaşdırdığı siyasi kurs bu gün də uğurla davam etdirilir. Bu kursun layiqli davamçısı olan İlham Əliyev Azərbaycanın dinamik inkişafını təmin edir, ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır.

Müasir dövrdə Azərbaycanın əldə etdiyi uğurlar - iqtisadi inkişaf, sosial rifahın yüksəlməsi, ərazi bütövlüyünün bərpası istiqamətində qazanılan nailiyyətlər - məhz Heydər Əliyev siyasi irsinin nəticəsidir. 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər də bu siyasətin məntiqi davamı kimi qiymətləndirilir. Azərbaycan Ordusunun əldə etdiyi bu qələbə dövlətimizin gücünü və xalqımızın birliyini bütün dünyaya nümayiş etdirdi.

Heydər Əliyevin həyat yolu yalnız siyasi fəaliyyətlə məhdudlaşmır. O, həm də böyük şəxsiyyət, müdrik lider, xalqına bağlı dövlət xadimi idi. Onun fəaliyyəti dövlət idarəçiliyi məktəbi kimi bu gün də öyrənilir və gələcək nəsillərə örnək göstərilir. Ulu Öndərin zəngin irsi Azərbaycan xalqının ən böyük sərvətlərindən biridir.

Yeni Azərbaycan Partiyasının yaradılması da Heydər Əliyevin siyasi fəaliyyətində mühüm yer tutur. 1992-ci ildə təsis edilən bu partiya qısa müddətdə xalqın etimadını qazanaraq ölkənin aparıcı siyasi qüvvəsinə çevrildi. Bu gün də partiya Ulu Öndərin ideyalarına sadiq qalaraq Azərbaycanın inkişafına öz töhfəsini verir.

Heydər Əliyevin mənalı həyat yolu və zəngin irsi tükənməz bir xəzinədir. Onun həyata keçirdiyi siyasət, qəbul etdiyi tarixi qərarlar Azərbaycanın bu gününü və gələcəyini müəyyənləşdirən əsas amillərdir. Ulu Öndərin hər bir addımı milli maraqlara xidmət etmiş, dövlətçiliyimizin möhkəmlənməsinə yönəlmişdir.

Bu gün Azərbaycan müstəqil, güclü və inkişaf edən dövlət kimi dünya arenasında öz layiqli yerini tutur. Bu uğurların təməlində Heydər Əliyevin uzaqgörən siyasəti dayanır. Onun müəyyən etdiyi inkişaf strategiyası ölkəmizin gələcək uğurlarının da əsas təminatıdır.

Ulu Öndərin əziz xatirəsi xalqımızın qəlbində daim yaşayır. Onun ideyaları, siyasi irsi və dövlətçilik prinsipləri gələcək nəsillər üçün yol göstəricisi olaraq qalacaqdır. Heydər Əliyevin həyat yolu sübut edir ki, xalqa xidmət etmək ən ali dəyərdir və bu yolda atılan hər bir addım tarixdə əbədi iz buraxır.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə onun əziz xatirəsini dərin ehtiramla yad edir, onun ideyalarının daim yaşayacağına inanırıq. Bu böyük şəxsiyyətin irsi Azərbaycan dövlətçiliyinin möhkəm təməli, xalqımızın isə qürur mənbəyidir.



*Azər SÜLEYMANOV,*
*tarix üzrə fəlsəfə doktoru,*
*Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri*

# Avrozonada iqtisadi geriləmə...

## Birlik ölkələrində son 3 ilin ən yüksək inflyasiyası qeydə alınıb

Avropada İstehsalçı Qiymət İndeksi mart ayında 3,4 faiz artaraq 2022-ci ilin avqust ayından bu yana ən yüksək sıçrayış nümayiş etdirib. Ötən illər ərzində müşahidə olunan və qlobal iqtisadiyyat üçün qeyri-müəyyənliklər yaradan geosiyasi gərginliklər 2026-cı ildə yeni kəskin fazaya daxil olaraq hərbi münaqişələrin coğrafiyasını genişləndirib. Yaxın Şərqdəki gərginliyin yaratdığı güclü maliyyə təzyiqləri nəticəsində Avrozonada artan inflyasiya təzyiqləri bütün ölkələrə sirayət edib.

Cərəyan edən proseslər enerji resursları üzrə təchizat zəncirinin pozulması və qiymət artımı səbəbindən daha yüksək inflyasiya gözləntiləri formalaşdırmaqdadır. Avropa Statistika Bürosunun (Eurostat) açıqlamasına əsasən, Avrozonada inflyasiya növbəti aylarda daha da artacaq.

### Enerji idxalı Avropa üçün ciddi təzyiqlər yaradır

Dünya Bankının (DB) "Qlobal iqtisadi perspektivlər" hesabatının yenilənmiş aprel nəşrinə əsasən, dünya iqtisadiyyatında iqtisadi artım fundamental sağlam əsaslara söykənmir və artım şirkətlərin yüksək tarif gözləntiləri səbəbindən idxalı artırmasını təşviq edir. Avrozonada iqtisadiyyat üzrə "staqflyasiya" (zəif artım və yüksək inflyasiya) riski sürətlə artır. Xüsusilə enerji idxalından asılı olan Avropa üçün ciddi təzyiqlər yaranır. Nəticədə, cari balansda giriş xərcləri son 16 ayın ən yüksək səviyyəsinə çatıb. Çıxış qiymətləri isə 54,2-yə yüksələrək inflyasiya təzyiqlərinin gücləndiyini göstərir. "Deutsche Bank"ın hesablamalarına görə ÜDM artımı 0,9 faizbəndi aşağı düşə, inflyasiya isə proqnozlardan 1,6 faiz-bənd yuxarı ola bilər.

Beynəlxalq Valyuta Fondu da baş verənlər fonunda qlobal mübadilələrdə məhsullara olan tələbatın azalması ilə bərabər, istehlakçı xərclərinə mənfi təsirlərin davam edəcəyini proqnozlaşdırır. Nəticədə qlobal inflyasiya 4,6 faizi ötəcək ki, Mərkəzi banklar proseslərə cavab olaraq monetar sərtləşmələr həyata keçirəcək.

Niderlandın ən böyük maliyyə qrupu olan "ING Group"un hesablamalarına əsasən, bütün dünya ölkələrində inflyasiya riskləri yüksək olaraq qalır və qiymət artımına həm xarici, həm də daxili amillər təsir göstərir. Xüsusilə qlobal ərzaq bazarındakı bahalaşma və daxili kommunal tarif artımları inflyasiya təzyiqlərini gücləndirən əsas faktorlar kimi qiymətləndirilir. Yeni gözləntilərə görə, qlobal ərzaq qiymətlərində təxminən 10 faiz artım baş verəcək ki, bu da əksər ölkələrdə qiymət indekslərini artıracaq.

"Bloomberg" nəşri də bir müddət əvvəl koronavirus pandemiyasından sonra ilk dəfə AB ölkələrində resessiyanın gözlənilməsinə dair ehtimallar irəli sürüb. Eləcə də, BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) dərc olunmuş illik Ticarət və İnkişaf Hesabatında da sərt pul siyasəti fonunda Avropada tənəzzül meyillərinin əlamətlərinə işarə edilib.



### Avropa Mərkəzi Bankı sərt pul siyasəti tətbiq etməyə hazırlaşır

Baş verən proseslər Avrozonada ümumi dövlət borcunun artaraq ÜDM-ə nisbətinin 90 faizə yüksəlməsinə səbəb olub. 2025-ci ilin dördüncü rübündə bu göstərici 88 faiz təşkil edib. Nəticədə, ümumi dövlət borcu Avrozonada 14 trilyon avroya çatıb. Dövlət borcunun ÜDM-ə nisbəti ölkələrin fiskal sağlamlığının mühüm göstəricisi hesab olunur və baş verən dəyişikliklər iqtisadi və fiskal siyasətin təsirlərini əks etdirir. Bu, Avropada fiskal balansda ciddi pozulmaların baş verdiyinə dəlalət edir.

Eyni zamanda, birlik ölkələrində büdcə kəsirinin də artımı qeydə alınmaqdadır. Kəsirin ÜDM-ə nisbəti 4 faizi ötüb. Mövcud vəziyyət Bankın (AMB) da qabaqlayıcı addımlar atmaq ehtimallarını təzləşdirir. Avropa Mərkəzi Bankının prezidenti Kristin Laqard inflyasiya ilə bağlı risklərin artdığını, iqtisadi artım üzrə risklərin isə aşağı yönlü olduğunu açıqlayıb. AMB rəhbəri bildirib ki, xüsusilə enerji bazarlarında baş verən proseslər qiymətlərə təzyiq göstərir. Onun sözlərinə görə, Orta Şərqdə davam edən münaqişə enerji qiymətlərində kəskin artıma səbəb olaraq inflyasiyanı yüksəldir və iqtisadi inamı zəiflədir. Müharibənin inflyasiya və iqtisadi fəaliyyətə təsiri onun müddəti və enerji qiymətlərinin nə qədər yüksək qalacağından asılı olacaq. Laqard qeyd edib ki, qısamüddətli inflyasiya gözləntilərində artım müşahidə olunsa da, qurum vəziyyəti yaxından izləməkdə davam edir. Artıq pul bazarlarında AMB-nin iyun iclasında uçot siyasəti ilə bağlı faizlərin artım ehtimalı da yüksəlir. AMB rəhbəri əlavə edib ki, faiz qərarları inflyasiya proqnozları, iqtisadi göstəricilər və pul siyasətinin effektivliyinə əsaslanaraq qəbul ediləcək və əvvəlcədən müəyyən edilmiş faiz trayektoriyası mövcud deyil. Hazırda birlik ölkələrində depozit faizi 2 faiz, əsas yenidən maliyyələşdirmə faizi 2,15 faiz, marjinal kredit faizi isə 2,40 səviyyəsindədir. Ancaq təzyiqlər dərəcələrin ən azı 1 faiz-bənd artımını qaçılmaz edəcək.

### Avrozonada risklər Azərbaycana hansı təsirlər edə bilər?

Avropa İttifaqı və Avrozonada iqtisadi risklər əsas etibarilə qiymətli kağız daşınmaz əmlak bazarlarına və investisiya alətlərinə daha çox təsir edir. Azərbaycan Avropanın daşınmaz əmlak və səhm, maliyyə sektoru ilə dərindən bağlı olmadığından ressesiyaların ölkəmizə təsirləri mümkün deyil.

Qlobal institutların aprel hesabatlarında Azərbaycanla bağlı nikbin inkişaf ssenariləri yer alıb. Beynəlxalq Valyuta Fondunun (BVF) ötən ay dərc etdiyi "World Economic Outlook" adlı hesabatında Azərbaycanda ÜDM-in artımını 2026-cı ildə 2,2 faiz, 2027-ci ildə isə 2,5 faiz olacağını proqnozlaşdırır. Fond iqtisadi göstəriciləri əvvəli qiymətləndirməyə nisbətən bir qədər, təxminən 0,1 faiz-bənd yaxşılaşdırıb, 2027-ci il üçün proqnoz isə dəyişməz qalıb. Ümumilikdə, qiymətləndirmələrə görə, qarşıdakı 2 ildə ölkə iqtisadiyyatının orta illik artımı 2,35 faiz təşkil edəcək. Valyuta Fondunun proqnozlarına əsasən, 2028-2031-ci illərdə Azərbaycan iqtisadiyyatı ildə orta hesabla 2,5 faiz artacaq.

Dünya Bankı və Niderlandın nüfuzlu maliyyə institutu olan "ING Group"un hesabatlarında da Azərbaycanın xarici iqtisadi vəziyyətinin və maliyyə perspektivlərinin yaxşı olduğu əks olunub. Hər iki institutun iqtisadçıları hesab edirlər ki, Azərbaycanın fiskal potensialı əlverişli olaraq qalır.

Hazırda Azərbaycan üçün əsas qayğı qlobal bazarlarda baş verən inflyasiya idxalını tam nəzarətdə saxlamaqdır. Xarici mühitin yüksək həssaslığı, dünyada geosiyasi və geoiqtisadi vəziyyətin daha da gərginləşməsi, beynəlxalq logistika zəncirlərinin pozulması, bir çox ölkələrdə inflyasiyanın hədəf səviyyələrindən yuxarıda qalması gözləntiləri, iqlim dəyişmələri səbəbindən temperaturun artması və digər mənfi xarici şoklar qiymətlərin əlavə artımına səbəb ola bilər. Rusiya-Ukrayna müharibəsinin yaratdığı şoklar bitməyib, Yaxın Şərqdə - İsrail və Fələstin arasında baş verən münaqişə də sona çatmayıb, bütün bunlar qlobal bazarlara mənfi təsirləri artıra bilər və qiymət dalğalanmalarına neqativ təzyiqini göstərməsi mümkündür. Bu baxımdan ölkədə mövcud birrəqəmli və aşağı inflyasiyanı məqbul səviyyədə saxlamaq hökumətin iqtisadi blokunun il ərzində qarşısında duran əsas tədbirlərdən biri olacaq.

**E.CƏFƏRLİ**

# Müstəqil Ermənistan yaranacaqmı?

## İrəvan ya yenidən "forpost" olmağı seçəcək, ya da...

Azərbaycanın 2020-ci ildən sonra yaratdığı yeni geosiyasi reallıq Cənubi Qafqazın gələcək inkişaf trayektoriyasını tamamilə dəyişib. Uzun illər münaqişə, işğal və qarşıdurma mühitində yaşayan region artıq əməkdaşlıq, kommunikasiya xətlərinin açılması və iqtisadi inteqrasiya imkanları ilə üz-üzədir. Rəsmi Bakı regionda davamlı sabitlik və əməkdaşlıq modelinin formalaşdırılmasını prioritet kimi müəyyənləşdirib. Azərbaycanın təşəbbüsü ilə bölgədə yeni iqtisadi və nəqliyyat layihələrinin perspektivi yaranıb.

Bu, illərlə regional layihələrdən kənarda qalan, təcavüzkar siyasəti səbəbindən özünü regionun əsas kommunikasiya və əməkdaşlıq platformalarından təcrid edən Ermənistan üçün də yeni imkan pəncərəsi açıb. İrəvan siyasi iradə nümayiş etdirəcəyi təqdirdə, həm iqtisadi inkişafını sürətləndirə, həm də uzun illər davam edən asılılıq sindromundan xilas ola bilər. Bu, Ermənistan üçün tarixi fürsətdir. Çünki sovet dövründən sonra bu ölkə heç vaxt real müstəqil siyasət yürütmək imkanına malik olmayıb. Bakının təklif etdiyi sülh gündəliyi Ermənistanın regional əməkdaşlığa qoşulması, nəqliyyat-kommunikasiya layihələrində iştirak etməsi və iqtisadi blokadadan çıxması üçün real şans yaradır. İrəvan ilk dəfə olaraq xarici güclərin diktəsi olmadan öz milli maraqlarına uyğun strateji seçim etmək imkanı əldə edib. Lakin müşahidə olunan proseslər göstərir ki, Ermənistan hakimiyyəti bu tarixi fürsəti düzgün qiymətləndirməkdə çətinlik çəkir.

**Ad dəyişir, status dəyişmir...**

Hazırda Ermənistanın daxilində və ətrafında baş verən proseslər onu yenidən böyük güclərin geosiyasi qarşıdurma meydanına çevirir. Ukrayna nümunəsində olduğu kimi, Qərblə Rusiya arasında dərinləşən rəqabət Ermənistan üzərindən də aparılır. Bu isə regionda sülh və sabitlik perspektivlərinə ciddi təhlükə yaradır. Əgər İrəvan yenidən xarici güclərin təsiri altında qərar verməyə davam etsə, onda Azərbaycanın təqdim etdiyi inkişaf və əməkdaşlıq imkanlarını itirməklə yanaşı, ölkə daxilində yeni siyasi və təhlükəsizlik böhranları ilə də üzləşə bilər.

Bakının İrəvan üçün müəyyənləşdirdiyi perspektiv kifayət qədər aydın və konkret xarakter daşıyır. Azərbaycan Ermənistana qarşı revanş və ya təcrid siyasəti deyil, əməkdaşlıq və inteqrasiya modeli təklif edir. Əslində, bu model Ermənistanın son onilliklər ərzində itirdiyi ən mühüm dəyəri - müstəqil dövlət olmaq imkanını geri qaytara bilər. Çünki Ermənistan tarix boyu böyük güclərin təsiri altında yaşayıb - uzun illər Ermənistan Rusiyanın Cənubi Qafqazdakı əsas forpostu kimi çıxış edib. Onun təhlükəsizlik sistemi, iqtisadi infrastrukturu və siyasi qərarlarının mühüm hissəsi Moskvanın nəzarəti altında olub. Ermənistan hakimiyyətləri isə bu asılılığı "təhlükəsizlik zəmanəti" kimi təqdim etməyə çalışıblar. Lakin nəticədə ölkə həm iqtisadi inkişaf baxımından, həm də regionun əsas layihələrindən kənarda qalıb.

İndi isə fərqli mənzərə formalaşır. Rusiya ilə münasibətlərdə yaranan gərginlik fonunda Ermənistan Qərbə yaxınlaşmağa çalışır. Xüsusilə Fransa Ermənistan üçün yeni siyasi himayədar rolunda çıxış edir. Amma burada da ana tezis dəyişmir: Ermənistan yenə də hansısa böyük gücün geosiyasi alətinə çevrilir. Sadəcə əvvəlki forpostun adı Rusiya idisə, indi bu rolu Qərb və Fransa oynamağa çalışır.



**Yeganə yol sülh yoludur...**

Bu gün Ermənistanın qarşısında duran əsas vəzifə yeni geosiyasi oyunların iştirakçısına çevrilmək deyil, regionda davamlı sülhün təmin olunmasına çalışmaq olmalıdır. Cənubi Qafqaz artıq qarşıdurmalar məkanı deyil - region ölkələrinin inkişafı yalnız sabitlik və əməkdaşlıq şəraitində mümkündür. Azərbaycan da məhz buna çağırır və sülh sazişinin imzalanmasını prioritet hesab edir.

Lakin Ermənistan daxilində və xaricində bəzi dairələr hələ də revanşist ritorikanı gündəmdə saxlamağa çalışırlar. İstər Rusiyadan, istərsə də Qərbdən səslənən bəyanatların mahiyyətində sülh prosesinə zidd mesajlar yer alır. Fransa prezidenti Emmanuel Makronun İrəvan səfəri zamanı alt qatında məhz "forposta çevrilmək" tezisi yatan fikirlər səsləndirməsi, ardından bu ölkənin xarici işlər nazirinin qeyri-hüquqi fikirləri deyilənləri təsdiqləyir. Bu yanaşmalar isə ilk növbədə Ermənistanın öz maraqlarına zərbə vurur. Çünki ölkənin yenidən qarşıdurma meydanına çevrilməsi onun iqtisadi və siyasi gələcəyini risk altına salır. Ermənistan anlamalıdır ki, Fransa və bəzi Qərb dairələrinin verdiyi dəstək geosiyasi maraqlardan irəli gəlir - onların əsas məqsədi Ermənistanın təhlükəsizliyini təmin etmək və ya regionda dayanıqlı sülh yaratmaq deyil. Əsas hədəf Rusiyanın Cənubi Qafqazdakı mövqelərini zəiflətmək və bölgədə yeni təsir imkanları əldə etməkdir. Ermənistan isə bu geosiyasi rəqabətdə sadəcə vasitəyə çevrilir.

**Əks halda... "Real Ermənistan" reallaşmayacaq**

Bir müddət əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan özü etiraf etmişdi ki, sülh ölkəsini "real Ermənistan" anlayışına yaxınlaşdıracaq. Bu fikir əslində mühüm siyasi etiraf idi. Çünki Paşinyan dolayısı ilə qəbul edirdi ki, illərlə davam edən işğal siyasəti və xarici güclərə bağlılıq Ermənistanın dövlət kimi normal inkişafına mane olub. "Real Ermənistan" anlayışı isə məhz müstəqil, təhlükəsiz və qonşuları ilə normal münasibətlər quran dövlət modelini nəzərdə tuturdu.

Hazırkı proseslər isə göstərir ki, Ermənistan bu konsepsiyadan uzaqlaşmağa başlayıb. Xarici güclərin regionda artan fəallığı İrəvanı yenidən köhnə siyasətə sürükləyir. Ölkə bir daha hansısa geosiyasi blokun forpostuna çevrilmək riski ilə üz-üzədir. Bu isə Ermənistanın özünün elan etdiyi uzunmüddətli maraqları ilə ziddiyyət təşkil edir.

Əslində, Ermənistanın qarşısında seçim kifayət qədər sadədir. Ya region dövlətləri ilə əməkdaşlıq edib iqtisadi inkişaf yolunu seçməli, ya da yenidən böyük güclərin rəqabət alətinə çevrilərək qeyri-müəyyən gələcəklə üzləşməlidir. Təəssüf ki, son dövrlərdə verilən siyasi mesajlar ikinci variantın daha çox önə çıxdığını göstərir.

**Ermənistan üçün tarixi nümunə...**

Tarix göstərir ki, böyük güclərin qarşıdurma məkanına çevrilən dövlətlər ən ağır nəticələrlə üzləşirlər. Ukrayna nümunəsi bunun ən açıq göstəricilərindən biridir. Ermənistan da oxşar səhvləri təkrarlasa, regionda yeni gərginlik dalğasının mərkəzinə çevrilə bilər. Halbuki sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və regional layihələrə qoşulmaq Ermənistan üçün həm təhlükəsizlik, həm də iqtisadi inkişaf baxımından daha rasional seçim olardı.

**P.İSMAYILOV**

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# 8 maydan 8 noyabra...

## 28 illik həsrət - Şuşa bizə, biz Şuşaya can atmışıq




Mədəniyyətimizin, musiqimizin beşiyi sayılan, hər bir azərbaycanlının adını ürəyinin başında gəzdirdiyi dağlar gözəli Şuşanın müasir tarixində həm kədər, qəm-qüssə, həm də sevinc, fərəh, qürur səhifələri yazılıb. Şəhər tarixin bu günündə - 8 may 1992-ci ildə işğal altına düşüb, 8 noyabr 2020-ci ildə isə işğaldan azad olunub.

Şuşanın işğal və azadlığına qovuşma tarixlərinin hər ikisində 8 rəqəminin yer alması təsadüfdürmü, yoxsa Allahın bir lütfüdürmü, bunu demək çətindir. Ancaq hər halda bu ştrix də tarixi, memarlığı, coğrafi yerləşməsi, iqlimi, insanları ilə təkrarsız olan Şuşanın özəlliklərindən biridir.

### Şuşa hər gün dirçəlir

Şuşanın işğalı 28 il çəkib. Ancaq bu zaman kəsiyində nə Şuşanın azərbaycanlı ruhu itib, nə də xalqımızın ona olan sonsuz sevgisi azalıb. Şuşa bizi gözləyib, biz də hər zaman doğma şəhərimizə qovuşmağa can atmışıq və bu möcüzənin baş verəcəyinə inanmışıq. 2020-ci il 8 noyabr tarixində Azərbaycan Ordusunun xüsusi təyinatlı qüvvələri misilsiz şücaət göstərməklə, mümkünsüz görünəni reallığa çevirməklə, Şuşanı azad etməklə xalqımıza sonsuz sevinc və qürur hissi yaşadıb. Şuşanın işğaldan azad edilməsi 44 günlük Vətən müharibəsində şanlı Zəfərimizin müjdəsi və rəmzi idi. Bundan sonra düşmən müharibəni davam etdirməyin mənasız olduğunu başa düşdü və noyabrın 10-da onun üçün kapitulyasiya sənədi sayılan üçtərəfli bəyanatı imzalamaq məcburiyyətində qaldı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev noyabrın 8-də Azərbaycan xalqına müraciətində qürur hissi ilə bildirib: “Əziz Şuşa, sən azadsan! Əziz Şuşa biz qayıtdıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!”.

Qalib Azərbaycan müharibədən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq-abadlıq işlərinə başlayıb. Şuşa isə Prezident İlham Əliyevin xüsusi qayğısı və Heydər Əliyev Fondunun yaxından iştirakı sayəsində hər gün dirçəlir, hər gün onun tarixinin daha bir parçası bərpa olnur, ənənələri geri qaytarılır. Şəhərin bərpasına yolların çəkilməsi, enerji, su təminatının qaydaya salınması, digər müasir infrastruktur obyektlərnin tikintisi ilə başlanıldı. Aradan az zaman məsafəsi ötüb. Ancaq qısa müddətdə Şuşanın yeni məhəllələri salınıb və artıq şəhərə köç başlayıb.

44 günlük müharibənin başa çatmasından cəmi bir il sonra Zəfər yolunun tikintisinin yekunlaşması əlamətdar hadisə idi. Onun açılışı 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə baş tutub. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Qeyd edək ki, Zəfər yolunun yatağından əvvəllər Şuşaya dar cığır uzanıb. Xüsusi təyinatlı qüvvələrimizin igid əsgər və zabitləri də Şuşanın fəthinə bu dar cığırdan keçməklə nail olublar.

*Mübariz ABDULLAYEV*

### Amansız işğalın kədərli izləri

Başı buludlara söykənən Şuşa o qədər munisdir, xalqımız üçün o qədər əzizdir ki, onun nə vaxtsa düşmən əlinə keçəcəyini heç təsəvvürümüzə belə gətirə bilməzdik. Ancaq bu, 34 il bundan əvvəl baş verdi.

Coğrafi yerləşməsinə görə alınmaz qala sayılan Şuşanın işğalını o dövrdə respublikamızda cərəyan edən ziddiyyətli ictimai-siyasi proseslərin fonunda dəyərləndirmək lazımdır. Müstəqilliyini yenicə bərqərar etmiş ölkədə anarxiya hökm sürürdü, vahid komandanlığa tabe olan ordu yox idi, ayrı-ayrı “liderlərin”, siyasi qüvvələrin başı hakimiyyətə gəlmək, karyera qurmaq, sərvət toplamaq uğrunda ədavət mübarizəsinə qarışmışdı. Məkrli düşmən də bundan sui-istifadə etməklə Şuşanın işğalına nail olub.

Ermənistan silahlı qüvvələri Şuşanın işğalı əməliyyatına mayın 8-nə keçən gecə başlayıb. Şəhərin intensiv artileriya atəşinə tutulması səhər saat 6-dək davam edib. Bundan sonra düşmən ordusunun 1000 nəfərlik şəxsi heyəti üç tərəfdən şəhərə hücuma keçib. Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən ələ keçirilməsi ilə Dağlıq Qarabağın işğalı başa çatdırılıb.

İşğaldan kədərli izlər qalıb. Qeyri-bərabər döyüşlərdə 195 nəfər Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirilib, 165 nəfər yaralanıb, 552 uşaq valideynlərini itirib, 20 mindən artıq mülki əhali isə doğma evəşiklərini tərk edərək məcburi köçkün vəziyyətinə düşüb.

İşğal illərində ermənilər şəhərdə ağlasığmaz vandalizm əməlləri törədiblər və hər vəchlə Şuşanın tarixi simasını dəyişərək onu özününküləşdirməyə və xalqımızın mədəni irsinə sahiblənməyə çalışıblar. 600-ə yaxın tarixi memarlıq abidəsi, o cümlədən Pənahəli xanın sarayı, Cümə məscidi, Aşağı Gövhər Ağa məscidi, XurşudBanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi yerlə-yeksan edilib. Şəhərin tarix muzeyinin 5 minədək əşyası, professional Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəylinin (300-dən çox əşya), vokal sənətimizin əsasını qoymuş böyük müğənni Bülbülün (400-dək əşya), görkəmli musiqiçi və rəssam Mir Mövsüm Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilib. Şuşada Üzeyir Hacıbəylinin, Bülbülün, Natəvanın heykəllərinin güllələnməsi isə erməni vəhşiliyinin, qəddarlığının zirvə nöqtəsidir.

# Genlərdə yazılan xəstəlik...

Elə xəstəliklər var ki, anadangəlmədir. Belə xəstəliklər arasında talassemiyanı xüsusilə qeyd etmək yerinə düşər. Talassemiya sadəcə qan azlığı demək deyil, bu xəstəlik insanın genetik yaddaşında gizlənən, valideynlərdən uşaqlara keçən və hemoqlobin adlı həyati əhəmiyyətli zülalın düzgün formalaşmasına mane olan mürəkkəb bir irsi pozğunluqdur. Nəticədə, qan hüceyrələri kifayət qədər güclü və dayanıqlı olmur, orqanizm isə oksigen çatışmazlığı səbəbindən daimi yorğunluq, halsızlıq, nəfəs darlığı və inkişaf geriliyi ilə üz-üzə qalır.

Bəzən talassemiyalı uşaqların üz cizgilərində yaranan dəyişikliklər, dəridəki solğunluq və zəiflik onların daxilində gedən görünməz savaşın xarici əlamətlərinə çevrilir. Lakin ən təsiredici məqam odur ki, bu uşaqlar bütün çətinliklərə baxmayaraq, həyata möhkəm bağlanır, məktəbə gedir, arzular qurur, gələcək haqqında düşünür və hər qan köçürülməsi onların həyatına əlavə edilmiş yeni bir nəfəs kimi dəyərləndirilir.

Tibb elmi inkişaf etdikcə talassemiyanın müalicəsində də mühüm addımlar atılıb. Müntəzəm qan köçürülməsi, dəmir yığılmasının qarşısını alan xüsusi preparatlar və sümük iliyi transplantasiyası kimi müasir üsullar minlərlə insanın ömrünü uzatmağa və həyat keyfiyyətini artırmağa imkan yaradıb. Buna baxmayaraq, xəstəliyin qarşısını almağın ən güclü yolu yenə də maarifləmə, genetik analiz və nikahdan əvvəl tibbi yoxlanış hesab olunur.

Məlumdur ki, irsi qan xəstəliyi olan talassemiya dünyanın bütün ölkələrində geniş yayılıb. Yeri gəlmişkən, bu gün - mayın 8-i Beynəlxalq Talassemiya Günüdür.

**Talassemiya nədir?**

Talassemiya qımızı qan hüceyrələrinə təsir göstərən pozğunluqdur. Qanın içərisindəki oksigeni daşıyan hüceyrələr sümüklərin içərisində yaranır. Bunlar isə hemoqlabin adlandırılan molekul tərəfindən daşınır. Həmin molekul pozulanda isə oksigen çatmır və qansızlıq yaranır.

**Xəstəliyin simptomları**

Talassemiyanın simptomları müxtəlifdir. Ən çox rast gəlinən simptomlar isə bunlardır: Sümük deformasiyaları, tünd rəngli sidik, inkişafın gecikməsi, daimi yorğunluq, sarı və ya solğun dəri.

**İki nəfər talassemiya daşıyıcısı evlənərsə...**

Qohum nikahların genetik xəstəlikləri artırması faktdır. Araşdırmalar müəyyən edir ki, yad insanların evliliyindən doğulan uşaqların qüsurlu olma riski 2-4 faizdirsə, qohum evliliklərində bu göstərici 4-8 faizdir.

Talassemiya daşıyıcılarının bəzilərində yüngül qan azlığına təsadüf edilə bilər. Elə bu səbəbdən də çoxları talassemiyanın daşıyıcısı olduqlarını heç təsəvvürlərinə belə gətirmirlər. Onlar özlərini sağlam hiss etsələr də, xəstəliyin əlamətlərini uşaqlarına irsən ötürürlər. Əgər xəstəliyin daşıyıcıları olan iki nəfər bir-biri ilə evlənibsə, onda övladlarında talassemiyanın çox ağır forması hesab edilən “böyük talassemiya” inkişaf edir. Qeyd edək ki, hər insanda 23 cüt xromosom var. Hər bir cüt xromosomun biri anadan, digəri atadan gəlir. Xromosomlar DNT-ni formalaşdırır. DNT-nin funksiyalarını müəyyənləşdirən, kodlaşdıran bölümlərinə isə gen deyilir. Qohum evlilər eyni soydan gəldikləri üçün ana və atanın eyni geninin süretini daşıyırlar. Belə olan halda qohum evliliklərdə zərərli genlərin bir-biri ilə qarşılaşma ehtimalı yüksək olur. Ona görə də onların uşaqlarının müəyyən xəstəliklərə tutulması ehtimalı çox yüksəkdir. Yəni qohum nikahlar genetik xəstəlikləri artıran önəmli faktorlardan biridir. Genetik xəstəliklər arasında isə talassemiya, hemofiliya və başqa qan xəstəlikləri daha çox yayılıb.

**Hər il 300-ə yaxın uşaq...**

Talassemiyanın geniş yayıldığı ölkələr sırasında Azərbaycan da var. Hər il 300-ə yaxın uşaq bu xəstəliklə doğulur. Ümumilikdə isə əhalinin hər 12 nəfərindən biri xəstəliyin daşıyıcısıdır. Xəstəliklə bağlı ən çox müraciətlər isə Zaqatala, Şəki, Oğuz, Qəbələ, Ağdaş, Kürdəmir, Masallı, Lənkəran, Sabirabad rayonlarındandır. Həmin bölgələrdə talassemiya daşıyıcılarının çoxluğu nəticəsində xəstə uşaqların doğulması riski də daha çoxdur.

Ölkəmizdə son illər talassemiya xəstəliyinin müalicəsi və diaqnostikası istiqamətində mühüm tədbirlər görülüb. Görülən tədbirlər nəticəsində talassemiyalı xəstələrin normal həyat fəaliyyəti təmin olunub, bu xəstəlikdən əlillik və ölüm halları azalıb. “Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının Qanunu bu xəstələrin donor qanına və dəmirqovucu dərman preparatlarına ehtiyacının tam ödənilməsinə, onların sağlamlıq vəziyyətinin yaxşılaşmasına imkan yaradıb.

**Humanizm və mərhəmətin təcəssümü...**

Məlumdur ki, Birinci xanım Mehriban Əliyevanın sosial sahə üzrə xeyirxah əməllərinin sayı saysız-hesabsızdır. Mehriban Əliyeva uzun illərdir ki, Azərbaycanda humanitar layihələrin, sosial proqramların və xüsusilə sağlamlıq sahəsində həyata keçirilən mühüm təşəbbüslərin əsas simalarından biri kimi tanınır. Onun talassemiyalı xəstələrə göstərdiyi diqqət və qayğı minlərlə ailənin həyatında ümid işığına çevrilərək cəmiyyətin sosial həmrəylik hissinin gücləndirilməsində mühüm rol oynayıb.




Talassemiya kimi ağır və daimi nəzarət tələb edən irsi qan xəstəliyindən əziyyət çəkən insanların müalicəsinin, müasir tibbi xidmətlərə çıxış imkanlarının və donor dəstəyinin artırılması istiqamətində həyata keçirilən layihələrdə Heydər Əliyev Fondu xüsusi fəallıq nümayiş etdirib. Məhz fondun təşəbbüsü ilə Azərbaycanda talassemiyalı xəstələrin daha keyfiyyətli tibbi xidmət alması üçün mühüm addımlar atılıb.

Bu istiqamətdə həyata keçirilən ən mühüm layihələrdən biri Milli Hematologiya və Transfuziologiya Mərkəzi nəzdində fəaliyyət göstərən Talassemiya Mərkəzinin yaradılması olub. Həmin mərkəz müasir tibbi avadanlıqlarla təchiz edilərək xəstələrin xarici ölkələrə üz tutmadan yüksək səviyyəli müalicə almasına imkan yaradıb. Nəticədə həm ailələrin maddi yükü azalıb, həm də xəstələrin həyat keyfiyyəti əhəmiyyətli dərəcədə yaxşılaşıb.

Mehriban Əliyeva dəfələrlə çıxışlarında qeyd edib ki, cəmiyyətin ən həssas təbəqəsinə daxil olan insanların qayğı ilə əhatə olunması dövlətin və ictimai institutların ən vacib vəzifələrindən biridir. Bu yanaşma onun rəhbərlik etdiyi sosial-humanitar layihələrin əsas fəlsəfəsini təşkil edir.

Talassemiyalı uşaqlarla keçirilən görüşlər, onların müalicə şəraitinin daim diqqətdə saxlanılması, qanvermə aksiyalarının təşkili və donor hərəkatının genişləndirilməsi istiqamətində görülən işlər cəmiyyətdə xeyriyyəçilik və humanizm ənənələrinin daha da güclənməsinə səbəb olub. Eyni zamanda minlərlə insanın bu xəstəlik barədə məlumatlılığını artıraraq erkən diaqnostikanın əhəmiyyətini ön plana çıxarıb.

Bu gün Azərbaycanda talassemiyalı xəstələrin dövlət qayğısı ilə əhatə olunması, onların müasir tibbi xidmətlərdən yararlanması və cəmiyyətə inteqrasiyası istiqamətində görülən işlər ölkənin sosial siyasətinin mühüm hissəsinə çevrilib. Bu prosesdə Mehriban Əliyeva tərəfindən həyata keçirilən təşəbbüslər humanizmə, mərhəmətə və insan sağlamlığına verilən böyük dəyərin parlaq nümunəsi kimi qiymətləndirilir.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5232**
**Sifariş: 603**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova